# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Ali məktəblərə ixtisas seçimi başlayıb



16


SƏS

№ 142 (7310)

12 avqust 2025-ci il.
Qiyməti 60 qəpik


# Yalnız İlham Əliyev bacardı...



5

*Dünənin "münaqişə ocağı"nda bu gün "sülh" bəyanatı səslənir*

# ZƏNGƏZUR DƏHLİZİ: 5 illik zəhmətin ZƏFƏRİ




14

## Kənddə yaşayaq, yoxsa şəhərdə?: Problemlər və üstünlüklər



12

## Azərbaycanla Ermənistan separatizmin və terrorizmin bütün təzahürlərini pisləyirlər



3

## Kaş ki bir də dönərdik o çağlara ...



7

## "Hürriyet" qəzeti: İlham Əliyev həm müharibədə, həm də danışıqlar masasında qalib gəlib



Hürriyet

HEM SAHADA HEM MASADA KAZANDI

Azerbaycan ve Ermenistan ABD'de barış anlaşmasını imzaladı

Anlaşma iki ülke arasındaki sınır çizgisini de belirleyecek

4

## İran: Pezeşkian radikal müqavimətlə üz-üzə



9





*Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəlilədilməsi və əldə olunmuş tarixi nəticələr ilə əlaqədar dövlətimizin başçısına və Azərbaycan xalqına təbriklər gəlməkdə davam edir.*

# Sülh və sabitlik üçün tarixi razılaşma!





## *Dünya liderləri Prezident İlham Əliyevi təbrik edirlər*

Avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib. Telefon danışığı zamanı Azərbaycan ilə Türkiyə arasında qardaşlığa və strateji müttəfiqliyə əsaslanan əlaqələrin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olunub.

Prezident İlham Əliyevin ABŞ-a səfəri çərçivəsində imzalanan sənədlərin, xüsusilə Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə imzalanmış bəyannamənin, Azərbaycan ilə Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Sazişin paraflanmasının, ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı birgə müraciətin regionda davamlı sülhün və sabitliyin təmin olunması baxımından əhəmiyyətinə toxunulub.

Bu nəticələrin əldə olunmasında ABŞ Prezidenti Donald Trampın xüsusi rolunu qeyd edən dövlətimizin başçısı Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan regionu arasında maneəsiz əlaqənin yaradılmasına xidmət edəcək nəqliyyat bağlantısının bütün regionun çiçəklənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib. Dövlətimizin başçısı Ermənistanla Azərbaycan arasında normallaşma prosesində Prezident Rəcəb Tayyib Ərdoğanın və qardaş Türkiyənin oynadığı rolu yüksək qiymətləndirib və buna görə təşəkkürünü bildirib.

Prezident Rəcəb Tayyib Ərdoğan regionda sülh gündəliyinin irəli aparılmasında nümayiş etdirdiyi liderliyə görə Prezident



İlham Əliyevə təbriklərini çatdırıb və qeyd edib ki, Türkiyə regionda sülhü və sabitliyi daim dəstəkləyir. Söhbət zamanı Azərbaycan təbii qazının Türkiyə ərazisindən Suriyaya ixracının başlanması müsbət hadisə kimi qiymətləndirilərək, bunun Suriyanın enerji təhlükəsizliyinə və əhalinin sosial rifahının gücləndirilməsinə töhfə verəcəyi bildirilib.

Telefon danışığı əsnasında Azərbaycan-Türkiyə qardaşlıq əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə zəng edib. Telefon danışığı əsnasında iyulun əvvəlində Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri və səfər çərçivəsində aparılmış səmərəli müzakirələr, əldə olunmuş razılaşmalar məmnunluqla xatırlanıb.

Prezident İlham Əliyevin ABŞ-a səfəri çərçivəsində imzalanan sənədlərin, xüsusilə Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə imzalanmış bəyannamənin və digər sənədlərin regionda davamlı sülhün və sabitliyin təmin olunması baxımından əhəmiyyətinə toxunulub. Bundan sonra atılmalı olan addımların Ermənistanla Azərbaycan arasında yekun sülh sazişinin imzalanmasına və onun ratifikasiyasına zəmin yaradacağı qeyd edilib.

Prezident İlham Əliyev bu nəticələrin əldə olunmasında ABŞ Prezidenti Donald Trampın xüsusi rolunu vurğulayıb, həmçinin regional nəqliyyat bağlantıları ilə əlaqədar razılaşmaların vacibliyini bildirib.

Şavkat Mirziyoyev öz növbəsində əldə olunmuş nailiyyətlər münasibətilə dövlətimizin başçısına və Azərbaycan xalqına təbriklərini çatdırıb, bunun bütün regionun inkişafına müsbət təsir göstərəcəyini qeyd edib.

Söhbət zamanı ölkələrimiz arasında qarşılıqlı sərmayələrin, o cümlədən Özbəkistanın Qarabağda həyata keçirdiyi layihələr, SOCAR və "Uzbekneftegaz" Konsorsiumu ilə Özbəkistan Respublikasının Hökuməti arasında imzalanmış Pay Bölgüsü Sazişinin önəmi vurğulanıb.

**Ardı Səh. 3**

Əvvəli-Səh-2



Avqustun 11-də İordaniyanın Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseyn Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

İordaniya Kralı Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəlilədilməsi və əldə olunmuş tarixi nəticələr ilə əlaqədar dövlətimizin başçısına və Azərbaycan xalqına təbriklərini çatdırıb, bu razılaşmaların regionda davamlı sülhün, təhlükəsizliyin və hərtərəfli əməkdaşlığın təmin olunmasına xidmət edəcəyinə ümidvarlığını bildirib.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını ifadə edərək, ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycanla Ermənistan arasında imzalanmış Birgə Bəyannamənin, həmçinin sülh və dövlətlərarası münasibətlərin yaradılmasına dair sazişin paraflanmasının və digər sənədlərin regionda sülhün təmin olunması baxımından vacibliyini vurğulayıb. Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılmasında Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın xüsusi rolunu qeyd edib. Telefon danışığı zamanı Azərbaycanla İordaniya arasında ikitərəfli münasibətlərə toxunulub, siyasi əlaqələrin mövcud vəziyyətindən məmnunluq ifadə olunub, müxtəlif sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Avqustun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyana zəng edib. Telefon danışığı zamanı Azərbaycan ilə BƏƏ arasında əlaqələrin dostluq və qardaşlıq xarakteri daşıdığı qeyd olunub. Dövlətimizin başçısının BƏƏ-yə sonuncu səfəri və Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşü məmnunluqla xatırlanıb.

Prezident İlham Əliyevin ABŞ-a səfəri çərçivəsində Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə imzalanmış bəyannamənin və digər sənədlərin önəmi vurğulanıb, bütün bunların regionda davamlı sülhün, sabitliyin və çiçəklənmənin təmin olunması baxımından əhəmiyyəti qeyd edilib. Bu nəticələrin əldə edilməsində ABŞ Prezidenti Donald Trampın xüsusi rolu yüksək qiymətləndirilib.

Dövlətimizin başçısı əldə olunmuş razılaşmalarda bu ilin iyul ayında Əbu-Dabidə Azərbaycanla Ermənistan arasında keçirilmiş ikitərəfli görüşün əhəmiyyətinə toxunub və buna görə Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyana təşəkkürünü bildirib. Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyan əldə olunmuş nəticələr ilə əlaqədar dövlətimizin başçısına təbriklərini çatdırıb və bunun tarixi xarakter daşıdığını qeyd edib. Telefon danışığı əsnasında Azərbaycan ilə BƏƏ arasında enerji, o cümlədən bərpaolunan enerji sahəsində uğurlu əməkdaşlıq qeyd edilib, qarşılıqlı sərmayələrlə bağlı fikir mübadiləsi aparılıb. Dövlətimizin başçısı Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanı Azərbaycana səfərə dəvət edib. Dəvət məmnunluqla qəbul olunub.

Avqustun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifə zəng edib. Telefon söhbəti zamanı Pakistanın Baş nazirinin ölkəmizə səfəri, Laçında ikitərəfli, həmçinin Azərbaycan-Türkiyə-Pakistan formatında keçirilmiş üçtərəfli görüşlər, eyni zamanda, onun İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndi Sammitində iştirakı məmnunluqla xatırlanıb.

Prezident İlham Əliyevin ABŞ-a səfəri çərçivəsində imzalanmış sənədlərin, xüsusilə Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə imzalanan bəyannamənin və digər sənədlərin regionda davamlı sülhün, sabitliyin və çiçəklənmənin təmin olunması baxımından əhəmiyyətinə toxunulub, bu nəticələrin əldə edilməsində ABŞ Prezidenti Donald Trampın xüsusi rolu qeyd olunub.

Məhəmməd Şahbaz Şərif əldə olunmuş razılaşmaların önəmini vurğulayıb və Prezident İlham Əliyevə təbriklərini çatdırıb. Telefon söhbəti əsnasında iqtisadi, enerji, ticari və sərmayələr sahələrində ikitərəfli əlaqələrin daha da genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Avqustun 10-da Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon danışığı əsnasında Ukrayna Prezidenti dövlətimizin başçısını Amerika Birləşmiş Ştatları Prezidenti Donald Trampın dəstəyi ilə Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə əlaqədar əldə olunmuş nailiyyətlər münasibətilə təbrik edib və bu görüşün tarixi xarakter daşıdığını vurğulayıb.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirib, Ermənistanla Azərbaycan arasında əldə olunmuş razılaşmaların, xüsusilə ABŞ Prezidentinin şahidliyi ilə iki ölkə arasında imzalanmış bəyannamənin və digər sənədlərin regionda davamlı sülhün və sabitliyin təmin olunmasına və çiçəklənməyə xidmət göstərəcəyini qeyd edib.

Telefon danışığı əsnasında Azərbaycan və Ukrayna arasında ikitərəfli əlaqələrə də toxunulub. Bu xüsusda, ötən ay Bakıda iki ölkə arasında hökumətlərarası komissiyanın iclasının keçirilməsi və bu çərçivədə iqtisadi-ticarət əlaqələrinin inkişafına dair səmərəli müzakirələrin aparıldığı vurğulanıb.

Telefon danışığı zamanı tərəflər Ukrayna ərazisində Azərbaycanın SOCAR şirkətinə məxsus neft anbarına və ölkəmizə aid digər obyektlərə, həmçinin Azərbaycan qazını Ukraynaya nəql edən qaz kompressor stansiyasına Rusiya tərəfindən məqsədyönlü şəkildə hava zərbələrinin endirilməsini pisləyib, bunun Azərbaycan ilə Ukrayna arasında energetika sahəsində əməkdaşlığın dayandırılmasına heç bir halda səbəb olmayacağına əminliklərini vurğulayıblar.

Avqustun 10-da Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Qazaxıstan Prezidenti Azərbaycanla Ermənistan arasında normallaşma gündəliyi ilə əlaqədar Amerika Birləşmiş Ştatlarında əldə olunmuş razılaşmalar münasibətilə dövlətimizin başçısını və Azərbaycan xalqını təbrik edib. Kasım-Jomart Tokayev bu nəticələrin tarixi əhəmiyyət daşıdığını qeyd edərək, onların regionda hərtərəfli əməkdaşlıq üçün imkan yaradacağına ümidvarlığını bildirib.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkür edərək, Amerika Birləşmiş Ştatlarında Azərbaycan ilə Ermənistan arasında ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə imzalanmış bəyannamənin və digər sənədlərin regionda davamlı sülhün və sabitliyin təmin olunması baxımından əhəmiyyətini vurğulayıb. Bu xüsusda göstərdiyi dəstəyə görə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın rolunu qeyd edib.

Prezident İlham Əliyev Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan regionu arasında maneəsiz nəqliyyat bağlantısı üzrə əldə olunmuş razılaşmanın Orta Dəhlizin yükaşırma qabiliyyətinə gələcəkdə müsbət təsir göstərəcəyini də deyib.

Dövlətimizin başçısı Qazaxıstanın ötən ilin mayında sülh danışıqları çərçivəsində Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri arasında aparılan danışıqlara ev sahibliyi etməsinə və bu prosesə töhfəsinə görə minnətdarlığını bildirib. Telefon danışığı zamanı Azərbaycan ilə Qazaxıstan arasında əlaqələrin perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Avqustun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədova zəng edib. Telefon söhbəti zamanı Qurbanqulu Berdiməhəmmədovun bir müddət əvvəl Azərbaycana, o cümlədən Qarabağa səfəri və bu çərçivədə aparılmış müzakirələr məmnunluqla xatırlanıb. Prezident İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafına toxunublar.

Telefon danışığı əsnasında Türkmənistanın Avaza şəhərində keçirilmiş BMT-nin Dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr üzrə Üçüncü Konfransının əhəmiyyəti qeyd edilib. Dövlətimizin başçısı bu tədbirin uğurla təşkil olunması ilə bağlı Qurbanqulu Berdiməhəmmədova təbriklərini çatdırıb.

Prezident İlham Əliyevin ABŞ-a səfəri çərçivəsində imzalanan sənədlərin, xüsusilə Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə imzalanmış bəyannamənin, Azərbaycan ilə Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Sazişin paraflanmasının və ATƏT-in Minsk qrupunun ləğvinə dair birgə müraciətin regionda davamlı sülhün və sabitliyin təmin olunması baxımından əhəmiyyətinə toxunulub.

Bu nəticələrin əldə olunmasında ABŞ Prezidenti Donald Trampın xüsusi rolunu qeyd edən dövlətimizin başçısı Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan regionu arasında əlaqənin yaradılmasına xidmət edəcək maneəsiz nəqliyyat bağlantısının bütün regionun çiçəklənməsinə töhfə verəcəyinə əminliyini bildirib.

Türkmənistan Xalq Məsləhətinin sədri əldə edilmiş tarixi razılaşmalar münasibətilə dövlətimizin başçısına və Azərbaycan xalqına təbriklərini çatdırıb.

Prezident İlham Əliyev onun salamlarını Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədova çatdırmağı xahiş edib. Qurbanqulu Berdiməhəmmədov da Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun salamlarını və təbriklərini dövlətimizin başçısına çatdırıb.

## Azərbaycanla Ermənistan separatizmin və terrorizmin bütün təzahürlərini pisləyirlər



Azərbaycan və Ermənistan dözümsüzlük, irqi nifrət və ayrı-seçkilik, separatizm, zorakı ekstremizm və terrorizmin bütün təzahürlərini pisləyirlər. AZƏRTAC xəbər verir ki, bu barədə "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Sazişin" paraflanmış mətnində qeyd olunub. Mətndə, həmçinin bildirilir ki, tərəflər özlərinin müvafiq yurisdiksiyaları çərçivəsində bu hallarla mübarizə aparacaqlar və özlərinin bununla bağlı müvafiq beynəlxalq öhdəliklərinə əməl edəcəklər.

## Azərbaycan-Ermənistan sərhədində hər hansı üçüncü tərəfin qüvvələri yerləşdirilməyəcək



Azərbaycan və Ermənistan qarşılıqlı sərhədə hər hansı üçüncü tərəfin qüvvələrini yerləşdirməyəcəklər. AZƏRTAC xəbər verir ki, bu, Azərbaycan və Ermənistan xarici işlər nazirləri tərəfindən paraflanan "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsində əksini tapıb.

Layihəyə əsasən, tərəflər qarşılıqlı sərhədin delimitasiyası və sonrakı demarkasiyasının başa çatmasına qədər, sərhəd bölgələrində təhlükəsizlik və sabitliyin təmin olunması məqsədilə, hərbi sahə də daxil olmaqla, qarşılıqlı razılaşdırılmış təhlükəsizlik və etimad-quruculuğu tədbirləri həyata keçirəcəklər.

# "Hürriyet" qəzeti: İlham Əliyev həm müharibədə, həm də danışıqlar masasında qalib gəlib










## Vaşinqtondakı tarixi sülh razılaşması dünya mətbuatında geniş işıqlandırılıb







Avqustun 8-də Ağ Evdə Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Trampın iştirakı ilə keçirilən görüş Cənubi Qafqazda 35 il davam edən münaqişəyə son qoyulmasına dair Birgə Bəyannamənin imzalanması ilə nəticələnib və bu, regionda davamlı sülh və sabitliyin bərqərar olması yolunda böyük addım oldu. Vaşinqtonda keçirilən görüş Azərbaycan liderinin döyüş meydanında qazandığı qələbədən sonra diplomatik qələbəsi olub.

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin "Hürriyyet" qəzetində bazar günü dərc olunan məqalədə deyilir. Materialda Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin sözləri sitat gətirilir: "Prezident İlham Əliyev təxminən beş il əvvəl Qarabağ müharibəsində qələbə qazanıb, bu gün isə Vaşinqtonda Azərbaycan lideri sülh yolunda qələbəyə nail olub".

Qəzetdə qeyd edilir ki, Bakı ilə İrəvan arasında yekun sülh sazişinin imzalanmasına bir neçə addım qalıb. "Bu istiqamətdə Ermənistan Konstitusiyasına yenidən baxılması və ATƏT-in Minsk qrupunun fəaliyyətinə xitam verilməsi vacibdir", - deyə məqalədə vurğulanır.

Qəzetdə yazılır ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında yeni nəqliyyat marşrutunun açılması istiqamətində işlərin bir il ərzində başa çatdırılması gözlənilir. Məqalədə Türkiyənin bölgədə sülh və sabitliyə yaxınlaşması işinə verdiyi töhfəyə xüsusi diqqət yetirilir. Türkiyə ilə Azərbaycan liderləri arasında dünənki telefon danışığından bəhs edilib, söhbətdə Türkiyə tərəfi danışıqlar prosesindəki irəliləyişdən məmnunluğunu ifadə edib.

Bundan başqa, Malayziyanın aparıcı media qurumları Azərbaycan Prezidenti İlham Əliyevin Vaşinqtona tarixi səfəri, ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycanla Ermənistan arasında sülh sənədinin imzalanmasını geniş işıqlandırıb.

Belə ki, Malayziyanın ən böyük xəbər agentliyi olan BERNAMA dövlət informasiya agentliyi və bütün Cənub-Şərqi Asiyada yayımlanan "New Straits Times" qəzeti, "Malay Mail", "Free Malaysia Today" "Astro Avani", "The Edge Malaysia" və s. nüfuzlu onlayn xəbər portalları Ağ Evdə keçirilən üçtərəfli görüşdə liderlərin uzunmüddətli sülhün bərqərar olması barədə razılığa gəldiklərini yazıb. Xəbərlərdə, iki ölkə arasında üç onillikdən artıq bir müddətdə davam edən münaqişənin başa çatmasının, kommunikasiya xətlərinin, o cümlədən Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında birbaşa yolun açılması üzrə razılığın əldə edilməsi xüsusi vurğulanır, bununla da bütövlükdə regionda sülh və əməkdaşlığın bərqərar olması üçün şəraitin yarandığı qeyd olunur.

Həmçinin bu tarixi razılaşmanın əldə edilməsi istiqamətindəki rolu nəzərə alınaraq, Prezident İlham Əliyev tərəfindən Donald Trampın Nobel Sülh Mükafatına namizəd göstərilməsi təşəbbüsü ilə çıxış etdiyi və bu təşəbbüsün Ermənistanın Baş naziri tərəfindən də dəstəkləndiyi bildirilib.

# Türkiyəli professor: Vaşinqton razılaşması Cənubi Qafqazın gələcəyi baxımından tarixi hadisədir

**Azərbaycan ilə Ermənistan arasında qalıcı sülhün təmin olunması istiqamətində avqustun 8-də Vaşinqtonda ortaya qoyulan ortaq iradə Cənubi Qafqazın gələcəyi baxımından tarixi hadisədir. Beynəlxalq münaqişə və böhranların getdikcə dərinləşdiyi bir dövrdə əldə edilən bu irəliləyiş, regional sülh və sabitlik baxımından strateji əhəmiyyətə malikdir. ABŞ administrasiyasının həlledici rolu təqdirəlayiqdir. Bununla yanaşı, prosesin bugünkü mərhələyə çatmasında Türkiyənin israrlı diplomatik təşəbbüslərinin və Prezident Rəcəb Tayyib Ərdoğanın regional və qlobal sülh naminə həyata keçirdiyi intensiv lider diplomatiyasının töhfəsi böyükdür.**

Bu sözləri AZƏRTAC-a açıqlamasında Ankara Hacı Bayram Veli Universitetinin professoru, Türkiyənin SETA-Siyasi, İqtisadi və İctimai Araşdırmalar Vəqfinin tədqiqatçısı




Erman Akıllı deyib.

O bildirib ki, on illərdir davam edən münaqişənin həllində əldə olunan bu irəliləyiş, yalnız tərəflərin sülhə olan sadiqliyini deyil, eyni zamanda, Türkiyənin qətiyyətli və konstruktiv diplomatik səylərinin konkret nəticələrini də əks etdirir. Erman Akıllının sözlərinə görə, Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə aparılan regional diplomatiya, Bakı ilə İrəvan arasındakı dialoq zəminini möhkəmləndirib, qarşılıqlı etimad mühitinin formalaşmasına töhfə verib. Ankara İkinci Qarabağ müharibəsindən sonra yaranmış fürsət pəncərəsinin bağlanmaması üçün prosesi daim gündəmdə saxlayıb, Ermənistanı sülh masasının ətrafında saxlayacaq mexanizmlərin yaradılmasında qabaqcıl rol oynayıb. Türkiyə bu səyləri ilə yalnız vasitəçi deyil, daimi sülhün memarlarından birinə çevrilib.

"Gələnən bu mərhələdə Cənubi Qafqazın əmin-amanlığa və rifaha qovuşması üçün tarixi bir imkan yaranıb. Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyində Türkiyə qardaş Azərbaycanın fədakar səylərinə tam dəstək verməyə, regional sülhün təmin olunması istiqamətində konstruktiv təşəbbüslər irəli sürməyə və tərəflərlə sıx təmasda olaraq prosesi irəlilətməyə davam edəcək. Bu diplomatik baxış, yalnız Qafqazda deyil, ətraf bölgələrdə də sabitliyi və əməkdaşlığı möhkəmləndirən bir model kimi ön plana çıxır", - deyə professor əlavə edib.

# Azərbaycan və Ermənistan keçmiş SSRİ dövründəki sərhədlərini tanıyacaqlar



Azərbaycan və Ermənistan keçmiş SSRİ-nin Sovet Sosialist Respublikaları arasında sərhədlərin müvafiq müstəqil dövlətlərin beynəlxalq sərhədlərinə çevrildiyini və beynəlxalq birlik tərəfindən bu şəkildə tanındığını təsdiq edərək, bir-birinin suverenliyini, ərazi bütövlüyünü, beynəlxalq sərhədlərinin toxunulmazlığını və siyasi müstəqilliyini tanıyır və hörmət edirlər.

Bu, Azərbaycan və Ermənistan xarici işlər nazirləri tərəfindən paraflanan "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsində əksini tapıb.



# Yalnız İlham Əliyev bacardı...

## Dünənin "münaqişə ocağı"nda bu gün "sülh" bəyanatı səslənir

***8** avqust 2025-ci il Cənubi Qafqazın münaqişə və toqquşmalardan xilas olub yeni dövrə qədəm qoyması baxımından silinməz tarix kimi yaddaşlara yazıldı. ABŞ Prezidenti Donald Trampın birbaşa təşəbbüsü ilə Ağ Evdə keçirilən tarixi görüş və imzalanan sənədlər təkcə Cənubu Qafqaz üçün deyil, bütün dünya üçün yeni səhifə açdı. Tarix göstərir ki, ABŞ, bəzi qısamüddətli istisnaları çıxmaq şərtilə, demək olar ki, bütün dövrlərdə dünyada müxtəlif münaqişələrin və inqilabların başlıca aktoru kimi tanınıb. Qərb dəyərlərinin "ixracı" adı altında müxtəlif demokratiya institutları vasitəsilə inqilablar hazırlamaq, regionlarda süni qarşıdurma yaratmaq bu siyasətin əsas dayaqları olub. Lakin ABŞ-ın indiki rəhbərliyi, xüsusilə Prezident Donald Tramp, həmin institutların yalançı fəaliyyətini ifşa edərək, qlobal siyasətdə yeni münasibətlər sisteminin bünövrəsini qoydu: barış və iqtisadiyyat.*

Bu gün Vaşinqtonun prioritet hədəfi davam edən münaqişələrin sülh yolu ilə həllinə nail olmaqdır. Bir vaxtlar "münaqişə ocağı" kimi tanınan güc mərkəzi, indi sülhün təşəbbüskarı rolunu oynayır. Dünyanın düzəni dəyişir, güc mərkəzləri yerini yeni aktorlara verir. Bu dəyişikliklərin fonunda Azərbaycan lideri İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona səfəri yeni tarixin başlanğıcı, yeni mərhələyə keçiddir.

### Strateji müttəfiqlik və Qərbə mesaj

Prezidentin səfərinin gündəliyini iki əsas istiqamətdə qiymətləndirmək olar. Birincisi, Azərbaycan–ABŞ ikitərəfli əlaqələrinin strateji müttəfiqlik səviyyəsinə yüksəldilməsi və əməkdaşlıq formatının yaranması.

İkincisi, Azərbaycan-Ermənistan münasibətlirinin nizamlanması, sülh danışıqlarının pik nöqtəsi və illərlə anti-Azərbaycan fəaliyyəti ilə məşğul olan Qərbə açıq mesaj. Bu həm də illərlə Qafqazda münaqişələri uzadaraq "hakimlik" etmək istəyən dairələrə qarşı kəskin xəbərdarlıqdır.

### Tarixin zibilliyinə tullanan ATƏT- in Minsk Qrupu

Uzun illər boyu ATƏT-in Minsk Qrupu vasitəsilə Qarabağ məsələsini həll etmək adı altında prosesin uzadılması, faktiki olaraq anti-Azərbaycan fəaliyyət göstərilməsi hər kəsə məlumdur. Təsəvvür etmək çətindir ki, bu gün həmin qurumun həmsədrlərindən biri olan ABŞ-ın ev sahibliyi etdiyi görüşdə, Prezident İlham Əliyev, Prezident Donald Tramp və Ermənistan Baş naziri Nikol Paşinyan Minsk Qrupunun yarıtmazlığını açıq şəkildə müzakirə edərək onun tarixi iflasını təsdiqləyirlər. Bu, İlham Əliyevin böyük strateq, siyasətdə ustad olduğunu bir daha sübutudur. Bu xarizmatik liderə məxsus ən böyük xarakter və bacarıqdır. Yaranmış siyasi vəziyyəti zamanında dəqiq qiymətləndirmək və rəqibə sarsıdıcı zərbə vurmaq yalnız dahi şəxsiyyətlərə məxsusdur.

### Sülh gündəliyi

Görüşün əsas mövzularından biri Azərbaycan–Ermənistan sülh sazişinin paraflanması və Zəngəzur dəhlizinin açılmasıdır. Ermənistanın təxminən 5 ilə yaxın müddətdə "Sülh kəsişməsi" adlı utopik layihə ilə vaxtı uzatmaq cəhdlərinə baxmayaraq, Azərbaycan öz böyük strateji məqsədlərindən birinə nail olur.

Bu gün Vaşinqtonda müzakirə edilən "Tramp yolu" adı altında təqdim olunan layihənin mahiyyəti hər kəsə bəllidir. Söhbət Zəngəzur dəhlizindən gedir. İlham Əliyev ilk gündən milli maraqlara söykənən şərtlərə, maneəsiz keçid prinsipində israr edərək buna nail olub. Artıq bu dəhlizin idarəetmə mexanizmi ABŞ-ın nəzarətində olacaq. Bu isə o deməkdir ki, Rusiya, Avropa və İran molla rejimi bundan sonra Qafqazdakı "qırmızı xətləri" Vaşinqtonla müzakirə etməli olacaq.

### Zəngəzura və Qərbi Azərbaycana ləyaqətli dönüşün başlanğıcı

Prezident İlham Əliyevin "Biz Qərbi Azərbaycana ləyaqətli şəkildə dönəcəyik" bəyanatı strateji reallığa çevrilməkdədir. Zəngəzur dəhlizinin açılması, faktiki olaraq, bu qayıdışın infrastruktur zəminini yaradır. Azərbaycan xalqı tarixi torpaqlarına gedən yolda daha bir mühüm mərhələni geridə qoyur. Bu ata-baba yurdumuza ləyaqətli qayıdışdır.

### Regional münasibətlər sistemində yeni formatlar

ABŞ-ın Cənubi Qafqazda mövcudluğu artıq ənənəvi baxışlardan uzaqlaşıb. Burada yalnız hərbi-siyasi deyil, iqtisadi və infrastruktur yönümlü əməkdaşlıq modelləri önə çıxır. Regional münasibətlər sistemində yeni formatların yaranması, çağırışların dəyişməsi Azərbaycan diplomatiyasının uğurlu strategiyasının nəticəsidir. Məhz İlham Əliyevin istəyi ilə ABŞ Azərbaycan – Ermənistan sülh prosesində fəal iştirakçıya çevrilib.

Vaşinqton görüşü təkcə bir diplomatik hadisə deyil, həm də regionda güc balansının yenidən formalaşmasının göstəricisidir. Qafqazda uzunmüddətli sülhün təmin olunması, Zəngəzur dəhlizinin reallaşması və Qərbi Azərbaycana dönüşün başlanması istiqamətində tarixi addım atılıb. Bu gün imzalanan sənədlərin və aparılan müzakirələrin nəticəsi olaraq Cənubi Qafqazda sülh və inkişaf dövrünün qapıları açılır. Azərbaycan liderinin iradəsi, diplomatiyası və milli maraqlara söykənən siyasəti bu prosesdə ən güclü təminatdır.

### 907-ci düzəliş tarixə gömüldü...

Ağ Evdə dünən keçirilən o tarixi görüşün əsas nəticələrindən biri də Donald Tramp tərəfindən Azadlığa Dəstək Aktına 907-ci düzəlişin tətbiqinin dayandırılması barədə Sərəncamın imzalanması da böyük əhəmiyyət kəsb edir. Bu da çox mühüm əhəmiyyət kəsb edir. Çünki vaxtilə ABŞ-dan dövlət yardımının göstərilməsi ümumiyyətlə qadağan edilmişdi. O vaxtkı ABŞ hakimiyyəti - Bayden, Blinkin administrasiyası Əfqanıstan əməliyyatları başa çatandan sonra dərhal 907-ci düzəlişi tətbiqini davam etdirdi. Bəli, dövlət başçılarının dünənki görüşü çərçivəsində Azərbaycana qarşı ədalətsiz bir sənədin tətbiqinin dayandırılması da ölkələrimiz arasında əməkdaşlığın inkişafına müsbət təsir göstərəcək. Beləliklə ABŞ-Azərbaycan münasibətləri üçün yeni dövr başlayır. Strateji tərəfdaşlıq, qarşılıqlı hörmət və dinamik inkişaf!



*Bəhruz Quliyev*
*"SƏS" qəzetinin Baş redaktoru*

# Vaşinqton görüşü bəzi qüvvələri ciddi narahat edib



***Azərbaycan Prezidenti İlham Əliyevin apardığı müdrik siyasət nəinki Azərbaycanımıza, ümumilikdə regiona sosial rifah, sülh və əmin-amanlıq gətirir. Avqustun 8-də Ağ Evdə baş tutan ABŞ-Azərbaycan ikitərəfli və ABŞ–Azərbaycan–Ermənistan üçtərəfli görüşü və imzalanan sənədlər Prezident İlham Əliyevin dünya siyasətində fenomen şəxsiyyətlərdən olduğunu təsdiqlədi. Bir daha məlum oldu ki, Fateh Sərkərdə, Prezident İlham Əliyev 30 illik erməni işğalı altında olmuş torpaqlarımızı işğaldan azad edilməsi ilə Azərbaycan xalqına böyük qələbə gətirdiyi kimi, həm də regionda ictimai-siyasi sabitliyi təmin edə biləcək sülhün banisidir.***

Vaşinqtonda keçirilən iki və üçtərəfli görüşlər qürurlu və qalib Azərbaycan xalqının, dövlətinin siyasi, diplomatik qələbəsi ilə yekunlaşdı. Ali Baş Komandan, Prezident İlham Əliyev bir səfəri ilə 1992-ci ildə Azərbaycana qarşı ABŞ Konqresi tərəfindən tətbiq olunan "907- ci düzəliş"in ləğvinə nail oldu. Azadlığa Dəstək Aktına "907-ci düzəliş"in ləğv olunması və strateji əməkdaşlıq formatına başlanması tarixi hadisədir. Azadlığa Dəstək Aktına ədalətsiz "907-ci düzəliş"in məhz Prezident İlham Əliyevin iştirakı ilə ləğv edilməsi son dərəcə tarixi və rəmzi xarakter daşıyır. Hazırda donor ölkəyə çevrilən Azərbaycanın xarici dəstəyə, yardıma ehtiyacı yoxdur. Ona görə də Prezident Trampın bu qərarı rəmzi xarakter daşımaqla yanaşı, həm ədalətin bərpası, həm də Prezident Tramp tərəfindən Azərbaycan üçün siyasi jestdir.

### Ağ Evdə reallaşan qələbə tarixi zəfərin davamıdır

Azərbaycan Prezidenti İlham Əliyev müdrik siyasəti ilə regionda sülhün təmin olunmasına xidmət edəcək sənədlərin dünyanın əsas güc mərkəzi hesab olunan Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın iştirakı və imzası ilə rəsmiləşdirdi. Bununla Prezident İlham Əliyev nəinki, regionun, ümumiyyətlə dünyanın ən nüfuzlu söz sahibi olan liderlərdən olduğunu nümayiş etdirdi. Təbii ki, sülhün əldə olunması bir daha regionumuzda müharibələrin, ən azı lokal toqquşmaların olmayacağından xəbər verir. Sülhün əldə olunması bölgənin iqtisadi cəhətdən inkişafı, tərəqqisi deməkdi. Sülhün daimi və davamlı olması ilə ailələr müharibə baş verə biləcəyi qorxusundan azad olacaqlar. Qurbanlar, dağıntılar, fəlakətli durum baş verməyəcək. Bu, həm Azərbaycan, həm Ermənistan, həm bütün bölgə üçün xüsusi əhəmiyyətə malik tarixi hadisədir.

Söz yox ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin təşəbbüskarı Azərbaycandır. Azərbaycan bu təşəbbüsü irəli sürəndən sonra heç yerdən cavab gəlmədiyi üçün məlum beş əsas prinsipi ortaya qoydu və bunun üzərində sülh sazişinin mətnini hazırladı. Sülh sazişinin bütün maddələrinin razılaşdırılması Cənubi Qafqaz üçün çox önəmli tarixi məsələdir. Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddiası məsələsi Vaşinqtonda sülh sazişinin imzalanmasına imkan vermədi. Bu dəyişikliklər ediləndən sonra sülh sazişi istənilən vaxtda imzalana bilər. Ermənistanın Konstitusiyasında dəyişiklik edilməsi tələbi Ermənistanın daxili işlərinə qarışmaq deyil, bu, Azərbaycanın ərazi bütövlüyünə dair açıq tələb və iddia olduğuna görə bu düzəliş edilmədən sülh sazişi imzalana bilməz. Ermənistan tərəfi özü bildirir ki, Konstitusiyasında dəyişikliklər edilməlidir və Azərbaycana olan ərazi iddiası oradan çıxarılacaq. Əks təqdirdə, bu, birinci növbədə ABŞ-a qarşı hörmətsizlik olacaq. Azərbaycanın mövqeyi hər zaman ardıcıl, məntiqli, əsaslı olub, heç vaxt Ermənistan qarşısında qeyri-real və qəbul edilə bilməyəcək şərtlər qoymayıb.

### Sülh layihəsinin müəllifi Azərbaycandır

Məlum faktdır ki, bəzi xarici qüvvələr regionumuzda yeni müharibələrin baş verməsi üçün müxtəlif vasitə və üsullardan istifadə edir, cəhdlər göstərilər. ABŞ-ın zəmanəti ilə Azərbaycanla Ermənistan arasında sənədlərin paraflanması məkrli dairələrin çirkin niyyətlərini iflasa uğratdı. Prezident İlham Əliyevin Vaşinqtona tarixi səfəri və imzalanan sənədlər ABŞ-ın keçmiş Bayden-Blinken Administrasiyasını, Makron, Avropa İttifaqı, Avropa Şurası, Avropa Parlamenti və s. dairələri acı məğlubiyyət acısını yaşamağa vadar etdi. Çünki bu məkrli dairələr uzun müddət Azərbaycanı güzəştlərə məcbur etmək siyasəti aparırdılar. Hətta xatırlatmaq lazımdır ki, Bayden hakimiyyəti Azərbaycana qarşı təzyiq və təhdid siyasətini öz ağılları ilə gücləndirmək niyyəti ilə 2023-cü il də "907-ci düzəliş"in bərpa olunması haqqında qərar vermişdi. Halbuki, 1992-ci il də qondarma düzəliş tətbiq olunsa da, ABŞ hökumətinin Əfqanıstanda dəstəyə ehtiyacı olduğuna görə 2001-ci ildə kiçik Buş həmin qərarın dondurulması barədə fərman vermişdi. Sonradan bu düzəliş hər il müvəqqəti olaraq dayandırılırdı.

2023-cü il noyabrın 15-də isə ABŞ Konqresinin Nümayəndələr Palatasında "Dağlıq Qarabağın gələcəyi" mövzusunda qondarma dinləmələr təşkil etmişdilər. Qondarma tədbirin əsas müəllifi Konqresin Avropa məsələləri üzrə alt komitəsinin sədri Tomas Kin olsa da, sifarişçisinin ermənilərin anası hesab olunan Kardaşyan olub. O zaman Tomas Kinin Ermənistanın ABŞ-dakı səfiri Lilit Makuns ilə 5 saatlıq görüş keçirməsi və sonradan bu görüşə erməni lobbisinin əsas simalarının, hətta Ağ Evin rəsmi nümayəndələrinin də qatılması qondarma dinləmələrin məkrli planlar üzərində qurulub, hazırlandığını təsdiqləmişdi. Dinləmələr gözlənildiyi kimi erməni lobbisinin tələblərinə uyğun keçirilib və özlərini rüsvay edən gülünc qərar qəbul etmişdilər. Lakin siyasi və diplomatik təzyiqlərə, beynəlxalq mediada təşkil olunan qarayaxma kampaniyasına, sanksiya hədələrinə baxmayaraq, Azərbaycan Prezidenti, Fateh Sərkərdə İlham Əliyev bir addım belə geri çəkilmədi, əsl Liderə xas olan qətiyyət və prinsipiallıq nümayiş etdirdi, siyasi strategiyasını tam həcmdə uğurla reallaşdırdı. Bir daha təsdiq olundu ki, Azərbaycan dövləti ilə təzyiq dilə ilə danışmaq onlar üçün faciələr gətirə bilər. Bu, qalib Prezident, regiona sülh gətirən Cənab İlham Əliyevin, Azərbaycan diplomatiyasının növbəti qələbəsidir. - Azərbaycanla ABŞ prezidentlərinin görüşünün səmimi şəraitdə keçməsi Prezident İlham Əliyevin liderliyinə və Azərbaycana göstərilən böyük önəmin göstəricisidir. Ümumiyyətlə, görünən ondan ibarətdir ki, Azərbaycan Prezidenti İlham Əliyevin və ABŞ Prezident Donald Trampın münasibətləri həmişə yaxşı səviyyədə olub, Azərbaycan seçkilərdə onu dəstəkləyib. Bu, növbəti illərdə ölkələrimiz arasında əlaqələrə də müsbət təsir edəcək.

### Nədən fars-molla rejimi ağlar günə qalıb?

Vaşinqtonda baş tutan tarixi görüşdən sonrada məkrli dairələr ənənəvi təxribatlarından əl çəkmirlər. Onlar siyasi mövqelərinə və maliyyə imkanlarına arxalanaraq yenidən təsir altında saxladıqları media orqanlarını dövriyyəyə buraxıblar. Təxribat maşınları sifarişlərə uyğun olaraq yeni cəfəng, məntiqsiz iddialarla çıxış edir, xəbərlər paylaşırlar. Hətta fars-molla rejiminin ulduza da hürən Vilayəti kimi molları Zəngəzur (Tramp yolunun) dəhlizinin Ermənistanın suverenliyinə zərbə olacağını iddia edirlər. Hətta bu ünsür Zəngəzur dəhlizinə qarşı Rusiya ilə, Rusiya olmasa təkbaşına mübarizə aparacaqlarını bəyan edib. Birincisi, bu məxluqa başa salmaq lazımdır ki, başın girməyən yerə niyə bədənin soxursan. Sən yersiz, yurdsuz tapşırıq icra edən yoluq bir məxluqsan. Nədən bölgəyə sülhün gəlməsindən əndişələnirsiniz? Nəyə görə, bölgədə yolların açılmasından narahatlıq keçirirsiniz?

O ki qaldı Ermənistanın suverenliyinin pozula biləcəyindən qarınağrısı keçirməyinizə, burada da yanlışlığa yol verirsiniz. İmzalanan birgə Bəyannamədə Azərbaycanın əsas hissəsindən Naxçıvan Muxtar Respublikasına maneəsiz çıxışın Ermənistanın suverenliyi çərçivəsində olması əksini tapıb. Azərbaycanın istədiyi təkcə ölkəmizin bir hissəsindən digər hissəsinə maneəsiz keçidi təmin etməkdir. Molla rejiminin əl arabasında oturub, zülüm-zülüm göz yaşı tökən ünsürləri mövcud reallığı dərk edib susmalıdılar. Ən azı prezidentləri Pezeşkiandan dərs götürüb, ağıllı olmağa çalışmalıdılar. M. Pezeşkianın Zəngəzur dəhlizinə, Azərbaycan-Ermənistan münasibətlərin qurulmasına, sülh sazişinin imzalanmasına dair mövqeyi müsbətdir, o, fars-molla rejiminin digər ölkələrlə normal münasibətlərini qurmaq istədiyini bildirib. Lakin Pezeşkiandan fərqli olaraq dini radikallar və fars şovinistləri buna imkan vermirlər. Araşdıranda məlum olur ki, fars-molla rejimin fəlakətli vəziyyətlə üzləşməsinin, yaxın və uzaq dövlətlərlə əlaqələrinin pozulmasının başlıca günahkarları elə gerizəkalı Vilayəti, Amili və digər bozbaş mollalardır. Molla rejimin cəmiyyətində dərin uçurumun yaranması, korrupsiya, rüşvətxorluq, ölkənin geridə qalması, bütün dünyadan təcrid olunması və digər rüsvayçı neqativ hallarında səbəbkarları üzdəniraq mollalardır. Yalandan boşboğazlıq edir, hədələyici bəyanatlar da səsləndirilər. İsrailin farsmolla rejiminə hücumu təsdiq etdi ki, bu rejim çürükdür, heç bir gücü, normal təhlükəsizlik sistemi mövcud deyil. Yenə də D.Trampa minnətdar olmalıdırlar. ABŞ qırıcıların sərrast zərbəsindən sonra Tramp müharibəni dayandırmağa qərar verdi və istədiyinə də nail oldu. Əgər müharibə bir qədər də davam etsə idi, yəqin ki, Vilayəti kimi boşboğazlar generallarının yanına göndəriləcəkdi. Ona görə bu gün nəfəs alıb, sayıqlaya bilirlərsə, buna görə D.Trampa minnətdar olmalıdırlar.

Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu (TRIPP) nəinki iki ölkəyə, ümumiyyətlə, regiona faydası böyük olacaq. Ona ABŞ rəhbərlik edəcək və bu da region ölkələrinə müsbət xeyir verəcək. Bu layihəni ancaq alqışlamaq və dəstək vermək lazımdır. Çünki regionunumuz sülh sazişinin imzalanması və Zəngəzur dəhlizinin açılması ilə inkişaf edən, sülhün və təhlükəsizliyin möhkəm əsaslar üzərində qurulacaq sabit və sakit bölgə olacaq.

***İLHAM ƏLİYEV***

# Vaşinqton görüşü: yeni tarixi səhifə

***7–8 avqust 2025-ci il tarixlərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına rəsmi səfəri iki ölkə münasibətlərində yeni mərhələnin başlanğıcı kimi tarixə düşdü. Ağ Evdə keçirilən yüksək səviyyəli görüşlər, imzalanan sənədlər və aparılan danışıqlar Azərbaycan-ABŞ əlaqələrini strateji tərəfdaşlıq səviyyəsinə yüksəltdi, Cənubi Qafqazda sülh prosesinə isə real dinamika qazandırdı.***



*Akif Rəfiyev,*
*Qarabağ müharibəsi veteranı, Ədliyyə general-mayoru, Azərbaycan Ağsaqqallar Şurasının İdarə Heyətinin üzvü, Binəqədi rayon Ağsaqqallar Şurasının sədri*

Səfər çərçivəsində imzalanan ən mühüm sənədlərdən biri Azərbaycan Respublikası ilə ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Anlaşma Memorandumu oldu. Bu sənəd qarşılıqlı maraq kəsb edən sahələr üzrə – enerji, ticarət, tranzit, rəqəmsal infrastruktur, süni intellekt, müdafiə və təhlükəsizlik – əməkdaşlığın yeni institusional əsaslar üzərində inkişaf etdirilməsini nəzərdə tutur. Növbəti 6 ay ərzində hazırlanacaq Xartiya ikitərəfli əlaqələrin uzunmüddətli yol xəritəsini formalaşdıracaq.

Prezident cənab İlham Əliyev görüşdə qeyd etdi ki, bu, təkcə siyasi sənəd deyil, həm də Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, investisiya axınının genişlənməsi və regionun tranzit imkanlarının artırılması baxımından böyük potensiala malik tarixi razılaşmadır.

Vaşinqton səfərinin ən diqqətçəkən məqamlarından biri ABŞ Prezidenti Donald Trampın "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin tətbiqini dayandırması oldu. 1992-ci ildə qəbul edilmiş bu ədalətsiz düzəliş illərlə Azərbaycan-ABŞ münasibətlərinə mənfi təsir göstərmiş, ölkəmizi hərbi və iqtisadi yardımlardan məhrum etmişdi.

Prezident cənab İlham Əliyevin vurğuladığı kimi, bu qərar yalnız rəmzi addım deyil, həm də ikitərəfli münasibətlərdə yeni etimad mühitinin yaradılması baxımından strateji əhəmiyyət daşıyır. Bayden administrasiyası dövründə yenidən tətbiq olunan sanksiyaların ləğvi ABŞ-ın Azərbaycanla yeni siyasi səhifə açmaq niyyətinin real göstəricisidir.

Səfər çərçivəsində Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə keçirilən sammitdə mühüm nəticələr əldə olundu. Prezident İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan tərəfindən "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsi paraflandı. ABŞ Prezidenti isə bu tarixi hadisəyə şahidlik etdi.

Eyni zamanda, ATƏT-in Minsk qrupu və əlaqədar strukturların ləğvi barədə birgə müraciət imzalandı. Bu, 30 ildən artıq davam edən, lakin real nəticə verməyən vasitəçilik formatına son qoyaraq sülh prosesini birbaşa tərəflərin iradəsinə bağladı.

Prezident cənab Əliyev bəyan etdi ki, Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları aradan qaldırıldıqdan sonra sülh sazişinin imzalanması mümkün olacaqdır. Bu, regionda dayanıqlı sülhün bərqərar olması üçün əsas şərtlərdən biridir.

Sammitin nəticələri arasında diqqət çəkən məqamlardan biri də "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" layihəsinin elan edilməsi oldu. Bu layihə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında Ermənistan ərazisindən keçən maneəsiz quru bağlantının yaradılmasını nəzərdə tutur. ABŞ-ın rəhbərliyi ilə həyata keçiriləcək bu strateji infrastruktur həm Azərbaycan, həm Ermənistan, həm də regionun digər ölkələri üçün iqtisadi və logistika baxımından yeni imkanlar açacaq. Prezident cənab Əliyev vurğuladı ki, Ermənistan tranzit ölkəyə çevrilərək iqtisadi qazanc əldə edə bilər, Azərbaycan isə öz tranzit imkanlarını daha da genişləndirəcək.

Səfər çərçivəsində SOCAR və ExxonMobil arasında "Əməkdaşlıq haqqında Memorandum" imzalandı. Bu razılaşma həm ənənəvi, həm də qeyri-ənənəvi enerji mənbələrinin kəşfi və işlənməsi üzrə əməkdaşlığı əhatə edir. Eyni zamanda, süni intellekt və rəqəmsal transformasiya sahələrində ABŞ şirkətləri ilə ilkin təmaslar quruldu.

Hazırda Azərbaycan təbii qazını NATO-nun 10 üzvünə ixrac edir və 14 ölkəyə boru kəməri vasitəsilə çatdırır. Bu coğrafiyanın Yaxın Şərqə qədər genişlənməsi planlaşdırılır.

Prezident cənab İlham Əliyevin də qeyd etdiyi kimi, Vaşinqton görüşü yalnız Azərbaycan və ABŞ üçün deyil, həm də bütün region üçün yeni tarixi səhifədir. Strateji tərəfdaşlığın başlanması, 907-ci düzəlişin dayandırılması, sülh sazişinin paraflanması və "Tramp Marşrutu"nun elan edilməsi Cənubi Qafqazda sabitliyin, əməkdaşlığın və iqtisadi inkişafın əsaslarını möhkəmləndirir.

Bu səfər bir daha göstərdi ki, Azərbaycan müstəqil siyasətini davam etdirərək beynəlxalq arenada öz mövqeyini gücləndirir, regionda sülhün qurulmasına liderlik edir və qlobal enerji təhlükəsizliyinə töhfə verir.

# Kaş ki bir də dönərdik o çağlara ...

***Gənclik İnsan ömrünün ən gözəl, əvəzolunmaz çağı. Əgər bilsək ki, gənclik əldən gedəndən sonra arxasınca düşüb axtaracaq, arayacaq, yenidən həyatımıza qaytarmağa çalışacağıq, lap əvvəldən onun qədir-qiymətini bilərik. Çünki gəncliyin nə qədər gözəl olduğunu onu yaşayarkən deyil, itirəndən sonra tam mənası ilə dərk edirik.***

O vaxt dərk edirik ki, saçlarımız yavaş-yavaş ağarmağa başlayır. O ağlar bizi gənclikdən çox uzaqlara aparır. Nə qədər gözəl, təravətli görünməyə çalışsaq da, saçların arasından boylanan ağlar artıq başqa bir yolçuluğa çıxdığından xəbər verir.

Gəncliyin gözəlliyini, əvəzolunmazlığını o zaman dərk edirik ki, güzgü qarşısında gözlərimizin ətrafında kiçik qırışları görürük. O şüşə kimi dümdüz, hətta gülümsəyəndə belə heç bir qırış yaranmayan üzümüzdəki cizgilər bizə yeni bir yolun başlanğıcında oldumuzu söyləyir.

Gəncliyin əlimizdən uçmaqda olduğunu o zaman anlayırıq ki, ümumilikdə əvvəlki görkəmimizdən əsər-əlamət qalmır. Bu zaman nə etsək də gənclik dövrümüzün bir anını belə geri gətirə bilmirik. Üzümüzdəki qırışlar getgedə daha da dərinləşir. Saçlarımız gündəngünə daha çox ağarmağa başlayır. Bəzənibdüzənəndə, geyinib-kecinəndə atrıq gənclikdə göründüyümüz qədər şux və gözəl görünmürük.

İllər gəncliyimizdən ötür İllər gəncliyimizi bizdən qoparır. İllər həm də gözəlliyimizi və yaraşığımızı bizdən alır. Lakin fərqində olmuruq, düşünürük ki, elə həmişə belə görünəcəyik. Bu gözəlliyi, yaraşığı kim əlimizdən ala bilər ki? Bu, bizə məxsusdur. Bunu Yaradan verib bizə, bizim də olacaqdır. Lakin illər axı bunu demir, illər başqa sözlər söyləyir və söylədiklərinin hər birini həyat bizə yaşadır.

Elə ki, gəncliyin son akkordlarını dinləyirik, bundan sonra başlayırıq yavaş-yavaş yaşlanmağa. Hələ də gənclikdən əlimizi üzmürük. Düşünürük ki, yox, o, əlimizdən hara gedə bilər ki?.. Lakin gedir, həm də sürətlə gedir. Getdikcə də zərbələrini vurur. Biz anlayanda ki, yox, ta o gənclikdən heç nə qalmayıb, başlayırıq onu yenidən axtarmağa. Bunun üçün axtarışlar edirik, nələrə əl atırıq, nə əziyyətlər çəkirik, zəhmət sərf edirik, lakin gəncliyi daha heç yerdə tapa bilmirik.

Yaşlanırıq Gəncliyin son nişanələrini itiririk. İtirdikcə də ən dəyərli nəyisə itirtdiyimizi hiss edirik. Deyirlər, adam nəyisə itirəndə, ölənədək gözü onu axtarır. Bax, bir də gənclik belədir. Baxırsan ki, yaş ötüb, olub 50-60, sən hələ də onu-gəncliyi axtarırsan. Gözlərin hər yerdə onu gəzir. Fotoları tökürsən qarşına, başlayırsan onlarla danışmağa. Kimlərsə o şəkilləri göstərməklə gəncliyini göstərmək istəyirsən. Sənin də gənclikdə gözəl və yaraşıqlı olduğunu sübut etmək, hamının bilməsini istəyirsən.

Lakin bunlar da keçicidir. Andır, anlar isə keçir, gedir. Sənsə olduğun yerdəsən. Daha gənc deyilsən, yaşlanmaqdasan. Bax bu an ürəklər sızlayır. Düşünürsən ki, ah, nə tez ötüb getdi gəncliyim. Kaşki bir daha dönərdim o çağlara. Kaşki yenidən gənc olardım. Kaşki o illərin bircə anını geri qaytara bilərdim. Təəssüf ki, mümkün deyil. Gənclik getmişdir, yerinə yaşlılıq gəlmişdir. Ta sənin yol yoldaşın təravət deyil, soluxmuş üz, qırışlı əllərdir. Nə qədər çalşsan da, şux qamət deyil, o sürətli addımlar deyil, əyilmiş qamətinlə yavaşıyan addımlardır. Sənin yolyoldaşın günəşin zərrin şəfəqlərində parıldayan saçlar deyil, yıpranmış, ağarmış, daha parlamayan saçlardır.

Bəs ürək?.. Bəli, tək ürəyin gəncliyini bizdən qoparmağa heç bir qüvvənin gücü çatmır. İçimizdə, köksümüzdə bəlkə də o da qocalır, bilmirəm kiçilirmi deyim, yaşlanma səbəbindən formasını itirirmi deyim, lakin istəkləri, həyata baxışı, dəyişmir. O, gənclik duyğuları ilə yaşayan və bu duyğuları hər an insana anladan tək olanımızdır. Bəlkə elə buna görə deyirlər ki, ürək qocalmır. Qocalmır, bəli. Gənclikdən bizə qalan tək ürəyimizdir. Bəlkə də tək ürək qocalmır ki, gəncliyi hər an insana anlada. Nə qədər gözəl bir dövrün əldən getdiyini hər an xatırlada və deyə ki, insan övladı, nə üçün qədrini bilmədin gəncliyin. Bəli, elə bu səbəbdən ürəyin qocalmamasına hökm verilib, inanın



Beləcə, həyatda qiymətini biləcəyimiz, borclu olacağımız çox şeylər var. Gənclik də onlardan biridir. Gözəlliyimiz,yaraşığımız ilə birlikdə fəal, aktiv iş həyatımız da gəncliklə bağlıdır. Dünyaya övlad bəxş etməyimiz, onu böyük səbrlə böyütməyimiz də gəncliyin bəxşişidir. Ev qurmaq, ev sahibi olmaq da gəncliyin ərməğanıdır. Sözün həqiqi mənasında, bütün gözəl görünən hər şey gənclikdədir. Yaşayarkən qədrini bilmədiyimiz, sonra çıraq işığında axtardığımız gənclik

Qədrini bilin gəncliyinizin, əziz gənclər. Həqiqətən də gəncliyi bayram etmək, onu xüsusi gün kimi qeyd etmək ən gözəl ənənələrdən biridir. Onu ildə bir gün deyil, hər gün bayram kimi xüsusi təntənə ilə anmaq lazımdır. Çünki insan övladına verilən ömrün dörd fəslinin ən gözəli gənclikdir. Gənclik bahardır, yazdır. Çiçəkləri, rayihəsi ilə gözəldir. Rəngləri, rəngarəngliyi ilə gözəldir.

Demirik ki, uşaqlıq, qocalıq çağları yaxşı deyil. Onların da özünəməxsusluqları var. Biz uşaq olmasaq, gəncləşə bilərikmi? Gənc olmasaq, yaşlaşa, nənə-baba ola bilərikmi? Nəvə sevgisini, şirinliyini yaşaya bilərikmi? Ağ saçlar, ağ saçlar deyirik, yaşlanmasaq, o müdrikliyi yaşaya bilərikmi? Bütün fəsillər kimi, insan ömrünün də bütün çağları gözəldir. Lakin gəlin etiraf edək ki, gənclik onların ən gözəli və əvəzolunmazıdır. Sən nə qədər gözəlsən, gənclik!

12 avqust Beynəlxalq Gənclər Günüdür. Bayramınız mübarək, əziz gənclər!

***Mətanət Məmmədova***

# Diplomatiyamızın parlaq siyasi triumfu

***Azərbaycan Prezidenti cənab İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın dəvəti ilə ötən həftə Vaşinqtona etdiyi işgüzar səfər bütün siyasi çevrələrdə çox düzgün olaraq respublikamızın diplomatiya tarixinin ən mühüm hadisələrindən biri kimi nəzərdən keçirilir. Azərbaycanı bir daha dünyaya yaxından tanıdan, onun beynəlxalq nüfuzunu və mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirən, Azərbaycanla Ermənistan arasında aparılan sülh prosesini hüquqi baxımdan gücləndirən bu səfər diplomatiyamızın parlaq siyasi triumfu kimi tarixə düşdü.***





***Ziyafət ƏSGƏROV,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədr müavini***

Öncə onu qeyd edim ki, Prezident İlham Əliyevin səfəri Azərbaycan-ABŞ münasibətlərində yeni inkişaf mərhələsinin əsasını qoydu. Məlum olduğu kimi C. Baydenin ABŞ-a rəhbərlik etdiyi dövr istisna olmaqla, Bakı ilə Vaşinton arasında münasibətlər normal axarda davam edib. İki dövlət enerji sferasında, beynəlxalq terrorçuluğa qarşı mübarizədə və digər sahələrdə fəal və səmərəli əməkdaşlıq həyata keçiriblər. Donald Trampın ABŞ-a birinci rəhbərliyi dövründə – 2020-ci ildə Azərbaycan ərazilərini döyüş yolu işğaldan azad edib və o zaman Ağ Ev bununla bağlı ümumən neytral mövqe nümayiş etdirib.

Lakin Baydenin rəhbərliyi dövründə Azərbaycan-ABŞ münasibətlərində dərin siyasi böhran yaranmışdı. Xüsusən antiterror əməliyyatlarından sonra Bayden-Blinken administrasiyası Azərbaycanın yaratdığı reallıqlara qarşı çıxır, respublikamızı Ermənistana hərbi təcavüz cəhdində ittiham edirdi. Azərbaycanın guya Ermənistana hücum edəcəyi ilə bağlı şayiələri yayan siyasi ünvanlardan biri məhz Bayden-Blinken administrasiyası idi. Vaşintonda Azərbaycan media nümayəndələrinin suallarını cavablandıran Prezident İlham Əliyev bu barədə söz açaraq deyib: «Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında quru əlaqəsi məsələsinə gəlincə deməliyəm ki, son beş ildə müxtəlif ölkələrin liderlərindən nə qədər şayiələr və təxribatlar eşitdik. Guya Azərbaycan Ermənistana hücum etməyi planlaşdırır, guya həmin ərazini güc yolu ilə ələ keçirmək niyyətindədir. Bizim bütün bunlar barədə təkzib mesajlarımız işə yaramadı, çünki bu təsəvvür artıq formalaşdırılmışdı, o cümlədən burada – Vaşinqtonda».

Bayden administrasiyasının dövründə Azərbaycandan rəsmi nümayəndə heyətlərinin ABŞ-yə səfərlərinə məhdudiyyət tətbiq edilmişdi. Hətta ABŞ-də müxtəlif səviyyələrdə Azərbaycana qarşı sanksiyaların da tətbiq olunması barədə təşəbbüslər səslənirdi. Bunların hamısı Azərbaycanı öz haqq yolundan döndərmək niyyəti daşıyırdı. Belə hallarla biz müstəqillik tariximizdə çox rastlaşmışıq. Lakin tarixi reallıqlar həm də ondan xəbər verir ki, Azərbaycanı öz yolundan döndərmək mümkün deyil. Bu baxımdan qürurla qeyd etməliyik ki, Bayden administrasiyasının anti-Azərbaycan fəaliyyətinin qarşısında rəsmi Bakı heç vaxt geri çəkilmədi və qətiyyətli siyasət yürüdərək milli maraq və mənafelərini layiqincə təmin etdi.

Artıq ABŞ rəhbərliyi dəyişib və ölkənin yeni administrasiyasının fəaliyyətinin fonunda özünü qabarıq göstərən həm də Ağ Evin dəyişən siyasətidir. Başqa cür desək, yeni administrasiya ABŞ milli maraqlarını dünyada ciddi şəkildə zədələyən yanlış siyasətdən imtina edib. Bu ilin əvvəlində USAİD-in bağlanması da təsdiqləyir ki, Tramp administrasiyası bu cür fəaliyyət mexanizmlərini qəbul etmir.

D.Trampın yenidən ABŞ Prezidenti seçilməsindən sonra Bakı ilə Vaşinqton arasında Bayden administrasiyasının Azərbaycana qarşı qərəzli münasibəti səbəbindən donmuş vəziyyətə düşən siyasi əlaqələr də yenidən canlanmağa başladı. Xatırladım ki, ABŞ-da keçirilən son prezident seçkilərindən hələ 3 ay öncə Şuşada təşkil olunan Qlobal Media Forumunda ABŞ-dəki seçkilərlə bağlı jurnalistin sualını cavablandıran Prezident İlham Əliyev böyük uzaqgörənlik və cəsarət nümayiş etdirərək o zaman prezidentliyə namizəd olan D.Tramp haqqında müsbət fikirlər söyləmiş, diplomatik dillə ifadə etsək, onun namizədliyini dəstəkləmişdi. Eyni zamanda Prezident İlham Əliyev bir neçə dəfə açıqlamalarında D.Trampın prezidentliyi dövründə ABŞ-nin heç bir müharibə başlatmadığını, o cümlədən D.Trampın ailə institutuna, ənənəvi dəyərlərə böyük önəm verdiyini qeyd etmişdir. Prezident İlham Əliyevin bu ilin iyulunda Xankəndidə keçirilən III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü zamanı D.Tramp barəsində səsləndirdiyi fikirləri isə ABŞ lideri özünün rəsmi sosial hesabında paylaşmışdı. Bütün bunlar söyləməyə əsas verirdi ki, Azərbaycan-ABŞ münasibətlərində tezliklə yeni inkişaf mərhələsi başlayacaq.

Prezident İlham Əliyevin D.Trampın dəvəti ilə ABŞ-yə avqustun 7-8-də etdiyi səfər deyilənlərin əyani təsdiqi oldu. Səfər zamanı imzalanan sənədlər qeyd etdiyim kimi Azərbaycan-ABŞ münasibətlərinin inkişafında yeni keyfiyyət mərhələsinin başlanmasını nümayiş etdirir. Bu sırada iki ölkənin prezidentləri tərəfindən imzalanan “Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu”nu xüsusi qeyd etməliyik. Azərbaycanla ABŞ arasında qarşılıqlı maraq kəsb edən sahələrdə strateji tərəfdaşlığın gücləndirilməsinə xidmət Anlaşma Memorandumuna əsasən Strateji Tərəfdaşlıq Xartiyasının növbəti 6 ay ərzində hazırlanması məqsədilə iki ölkə arasında Strateji İşçi Qrupu yaradılması nəzərdə tutulur. Strateji İşçi Qrupu çərçivəsində enerji, ticarət və tranzit daxil olmaqla regional bağlantılar, süni intellekt və rəqəmsal infrastruktur daxil olmaqla iqtisadi sərmayə, eləcə də müdafiə, təhlükəsizlik və terrorla mübarizə kimi sahələrin prioritetləşdirilməsi planlaşdırılır. Bu, ikitərəfli praktiki əməkdaşlıq üçün institusional çərçivənin təsis edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Prezident İlham Əliyev Ağ Evdə mətbuata bəyanatla çıxışında Azərbaycanla ABŞ arasında strateji tərəfdaşlığın artıq başladığını bildirərək deyib: «Biz həqiqətən də yeni tarixi səhifəyə imza atırıq. Eyni zamanda, ABŞ və Azərbaycan arasındakı ikitərəfli münasibətlər yeni pilləyə qalxır və bizim strateji tərəfdaşlığımız artıq başlayır. Bu istiqamətdə bir neçə ay ərzində sənədlər və bütün mətnlər hazırlanacaq. Azərbaycan üçün bu, tarixi nailiyyətdir. Çünki bu gün strateji tərəfdaşlıq kontekstində dünyanın ən böyük ölkəsi ilə əlaqələr qurulur».

Səfər çərçivəsində Azərbaycan Prezidentinin və ABŞ Prezidentinin xüsusi elçisinin iştirakı ilə SOCAR və ExxonMobil korporasiyası arasında “Əməkdaşlıq haqqında Memorandum” da imzalanıb. Bu sənəd Azərbaycanla ABŞ arasında enerji sahəsində əməkdaşlığı daha da gücləndirəcək və Prezident İlham Əliyevin bildirdiyi kimi əhəmiyyətli bir layihə ilə nəticələnəcək.

Prezident İlham Əliyevin Vaşinqtona səfəri zamanı Azərbaycan-ABŞ münasibətlərinin inkişafı istiqamətində atılan mühüm addımlardan biri də ABŞ Prezidentinin Azadlığa Dəstək Aktına 907-ci düzəlişin tətbiqinin dayandırılması barədə sərəncam imzalanması oldu. Azərbaycan-ABŞ münasibətlərində keçmişin mənfi mirası olan 907-ci düzəlişin tətbiqinin D.Tramp tərəfindən məhz Prezident İlham Əliyevlə görüş çərçivəsində dayandırılması əhəmiyyətli rəmzi məna daşıdı, ABŞ-nin Azərbaycanla əlaqələrin inkişafına verdiyi önəmin təcəssümünə çevrildi.

Xatırladım ki, 1992-ci ilin oktyabrında erməni lobbi qruplarının təsiri altında olan konqresmenlərin təşəbbüsü ilə Azadlığa Dəstək Aktına 907-ci düzəlişin edilməsi ölkəmizi ABŞ-nin birbaşa dəstəyindən məhrum etmiş və respublikamız sanksiyalara məruz qalmışdı. ABŞ-nin Əfqanıstanda dəstəyə ehtiyacı olduğuna görə və Azərbaycan bu dəstəyi verdiyi üçün sonradan bu düzəliş hər il müvəqqəti olaraq dayandırılırdı. 2023-cü ildə ABŞ tərəfindən 907-ci düzəlişin yenidən tətbiq olunması Bayden-Blinken cütlüyünün Azərbaycana olan qərəzli münasibətin göstəricisi idi.

Bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə elə bir bir inkişaf mərhələsinə yüksəlib ki, həm də donor ölkəyə çevrilib. Ona görə Azərbaycanın hansısa xarici dəstəyə və yardıma ehtiyacı yoxdur. Bununla belə Prezident Trampın bu qərarı rəmzi xarakter daşımaqla yanaşı, həm ədalətin bərpası, həm də Tramp tərəfindən Azərbaycan edilən siyasi jest oldu.

Bütövlükdə, Prezident İlham Əliyevin Vaşinqtona səfərinin yekunları Azərbaycan-ABŞ münasibətlərinin keyfiyyətcə yeni dövrə qədəm qoymasına xidmət edən nüanslarla zəngin oldu. Ona görə bu səfərin nəticələri həm də Azərbaycanın xarici siyasətin mühüm uğurlarıdır. Prezidenti İlham Əliyev Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibəsində səfərin hər bir uğurunu tarixi hadisə adlandıraraq deyib: «Təbii ki, 907-ci düzəlişin ləğv olunması, hesab edirəm ki, tarixi hadisədir. Artıq strateji əməkdaşlıq formatına başlamağımız da hesab edirəm ki, tarixi hadisədir. Ona görə mən səfərin nəticələrindən çox məmnunam və əminəm ki, bu səfərin konkret nəticələri yaxın gələcəkdə özünü büruzə verəcək».

Səfərlə bağlı bir məqamı da qeyd etmək yerinə düşər ki, Azərbaycan və ABŞ prezidentlərinin Ağ Evdəki görüşünün səmimi və dostluq ovqatında keçməsi, Azərbaycan nümayəndə heyətinə göstərilən yüksək münasibət, dövlətimizin başçısına hədiyyənin və Ağ Evin rəmzi açarının təqdim olunması D.Trampın cənab İlham Əliyevə olan böyük ehtiramının və Azərbaycana verdiyi önəmin göstəricisinə çevrildi. Etiraf edək ki, heç də bütün dövlət və hökumət başçıları Ağ Evdə belə səviyyədə qarşılanmır. Və ya ABŞ rəhbərliyi heç də hamıya bu cür səmimi münasibət göstərmir. Prezident D. Tramp özü də qeyd etdi ki, Ağ Evin rəmzi açarını nadir hallarda təqdim edir.

Prezident İlham Əliyevin ABŞ-yə səfəri Azərbaycan-ABŞ münasibətlərində irəliyə doğru mühüm addımların atılması ilə yanaşı, Azərbaycanla Ermənistan arasındakı normallaşma prosesi və sülh sazişinin imzalanması kontekstində indiyədək əldə olunmuş bütün nəticələrin fövqündə, zirvəsində dayanan tarixi razılaşmaların əldə edilməsi ilə əlamətdar oldu. Ona görə Azərbaycan Prezidenti və Ermənistan Baş nazirinin Vaşinqtonda D.Trampın iştirakı ilə keçirdikləri görüş Zirvə görüşü də adlandırılır. Bu görüş zamanı Vaşinqtonda "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsinin paraflanması iki dövlət arasında sülhün təmin edilməsi istiqamətində indiyə qədər atılmış ən mühüm addımdır. Saziş layihəsini paraflamaqla Ermənistan onun mətni ilə razı olduğunu ABŞ-nin iştirakı ilə hüquqi çərçivədə təsdiq etdi.

Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasına dair təklif və təşəbbüs ilk olaraq rəsmi Bakı tərəfindən irəli sürülüb. Hazırda razılaşdırılmış saziş layihəsinin mətni də Azərbaycanda yazılıb. O da məlumdur ki, 44 günlük müharibədən sonrakı dövrdə Ermənistan hakimiyyəti Azərbaycanın təşəbbüslərinə adekvat cavab verməkdən yayınır, o cümlədən hərbi təxribatlarla bu prosesə qarşı çıxmağa çalışırdı. Bu məsələdə Fransanın, ABŞ-nin əvvəlki rəhbərliyinin antiazərbaycançı mövqeyi və regionda yaranmış reallıqları qəbul etməmələri, habelə Ermənistandakı revanşizmə, Qarabağdakı separatizmə dəstək vermələri də xüsusi rol oynayırdı. Lakin 2023-cü ilin antiterror əməliyyatından sonra Ermənistanın artıq reallıqlarla barışmaqdan başqa yolu qalmadı və bir neçə ay əvvəl rəsmi İrəvan sülh sazişinin bütün maddələri ilə razı olduğunu bəyan etdi. Sülh sazişinin paraflanması ilə həm də Qərbdə Azərbaycanı Ermənistana hücum etməkdə ittiham edənlərin, ölkəmihə iftira atanların bütün bu əsassız və qərəzli arqumentləri əllərindən alındı.

Sülh sazişinin imzalanmasına gedən yolda Vaşinqtonda əldə olunan daha bir hüquqi razılaşma Azərbaycan və Ermənistanın xarici işlər nazirləri tərəfindən ATƏT-in Minsk Prosesinin, ATƏT-in fəaliyyətdə olan sədrinin Minsk konfransının müzakirəsində olan münaqişə üzrə şəxsi nümayəndəsi və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun bağlanması barədə ATƏT-in fəaliyyətdə olan sədrinin ünvanına birgə müraciət məktubunun imzalanmasdır. Minsk qrupunun ləğvi Azərbaycanın sülh sazişinin imzalanması istiqamətində Ermənistan qarşısında qoyduğu iki əsas şərtdən biridir. ABŞ-də Azərbaycan və Ermənistanın xarici işlər nazirləri tərəfindən birgə müraciətin imzalanması ilə rəsmi İrəvan bu şərtlərdən birini yerinə yetirmiş oldu.

Minsk qrupu Azərbaycanın 44 günlük müharibədəki qələbəsindən sonra öz fəaliyyətini faktiki olaraq dayandırmışdı. Bu strukturun ATƏT tərəfindən ləğvindən sonra isə Ermənistanda və ondan kənardakı revanşistlərin, erməni lobbisinin və bütövlükdə antiazərbaycançı dairələrin yapışacaqları hansısa hüquqi istinad yeri olmayacaq.

Bundan sonra yekun sülh sazişinin imzalanması üçün Ermənistanın yerinə yetirməli olduğu yalnız bir şərt qalır. Bu da Ermənistan konstitusiyasından Azərbaycana qarşı olan ərazi iddialarının çıxarılmasıdır. Prezident İlham Əliyevin Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibəsində bildirdiyi kimi bu dəyişikliklər ediləndən sonra artıq sülh sazişi istənilən vaxtda imzalana bilər: «Təbii ki, Ermənistanın, necə deyərlər, ev tapşırıqları da var. Bildiyiniz kimi, onların konstitusiyasında Azərbaycana qarşı ərazi iddiası məsələsi imkan vermədi ki, bu gün sülh sazişi imzalansın. Amma bu dəyişikliklər ediləndən sonra artıq sülh sazişi istənilən vaxtda imzalana bilər».

Vaşinqton görüşünün nəticələrinə dair imzalanan Birgə Bəyannamə isə bütün müddəaları ilə tam şəkildə Azərbaycanın milli maraq və mənafelərini ifadə edir. Sənəddə yer alan bütün fikirlər Azərbaycanın sülh prosesi ilə bağlı irəli sürdüyü prinsiplərə tam uyğundur. Birgə Bəyannamədə "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsinin paraflanması ilə bağlı müddəa çərçivəsində, Sazişin imzalanması və ratifikasiyasına nail olmaq üçün əlavə tədbirlərin görülməsinə ehtiyac olduğu təsbit edilib. Bunlardan başqa sənədə əsasən tərəflər BMT Nizamnaməsi və 1991-ci il Almatı Bəyannaməsinə uyğun olaraq, keçmiş münaqişənin əsiri olmayan parlaq gələcək yoluna qədəm qoyulmasına olan ehtiyacı qəbul edirlər.

Bəyannamədə Azərbaycanın əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin olunması ilə bağlı müddəanın yer alması da respublikamızın milli maraqlar müstəvisində qarşıya qoyduğu prinsipial hədəfinə çatması deməkdir. Sənəddə təsbit olunan "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) Ermənistan ərazisi vasitəsilə Azərbaycanın əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsi məqsədilə ABŞ tərəfindən həyata keçiriləcək layihəni nəzərdə tutur. "Tramp yolu" adlanmasına baxmayaraq, söhbətin Zəngəzur dəhlizindən getdiyi aydındır. Beləliklə, Prezident İlham Əliyevin 44 günlük müharibədən sonra qarşıya qoyduğu daha bir milli məqsəd həyata vəsiqə almaq üzrədir.

Ötən 5 ilə yaxın dövr dövlətçiliyimizi və müstəqilliyimizi xüsusilə şərəfləndirən çoxsaylı hadisələrlə zəngindir. Cənab Prezident İlham Əliyevin uzaqgörən və qətiyyətli siyasətinin nəticəsi olaraq torpaqlarımızın işğaldan azad olunması, Qarabağda erməni separatçılığına son qoyulması, bütün ərazilərimiz üzərində milli suverenliyimizin tam təmin edilməsi tariximizin qürur doğuran səhifələridir. İkinci Dünya Müharibəsinin başa çatmasından ötən dövrdə Azərbaycan istisna olmaqla, hansısa dövlətin birmənalı qalib olduğu savaş yoxdur.

Vaşinqtonda Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması ilə bağlı atılan nəticəyönümlü addımlar, sülh sazişinin paraflanması, Birgə Bəyannamənin imzalanması və dünyanın ən qüdrətli dövlətinin bu prosesə həm dəstək verməsi, həm də şahidlik etməsi Prezident İlham Əliyevin respublikamıza qazandırdığı növbəti tarixi və diplomatik nailiyyətdir. Göründüyü kimi, tarixi ədaləti güc yolu ilə bərpa edən Müzəffər Ali Baş Komandan, qətiyyətli siyasəti ilə diplomatik müstəvidə də respublikamıza qələbələr qazandırır, Vətən müharibəsində yaratdığı reallıqların qlobal səviyyədə tanınmasına nail olur, regionda sülhü bərqərar edir. «Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm» deyən cənab Prezident İlham Əliyev özünün siyasi erudisiyası ilə Azərbaycanı milli hədəflərinə layiqincə çatdırır.

# İran: Pezeşkian radikal müqavimətlə üz-üzə





***Son vaxtlar bölgədə cərəyan edən sürətli və davamlı siyasi proseslər artıq dəyişiklik və inkişaf zərurətini qaçılmaz edib. Xüsusilə 1979-cu ildən bəri dini rejimin xofu altında yaşayan İranda bu siyasi zərurət hər gün daha aydın və qabarıq şəkildə hiss olunmaqdadır. İranın yeni prezidenti Məsud Pezeşkianın seçkilərdən sonrakı çıxışları və ilk addımları ölkə daxilində islahat gözləntilərini artırıb. Onun siyasi kursu açıq şəkildə göstərir ki, məqsəd İranın digər ölkələrlə normal diplomatik münasibətlər qurması, iqtisadi və siyasi təcriddən çıxmasıdır. Pezeşkian üçün bu, yalnız xarici siyasət məsələsi deyil – o, eyni zamanda daxildə sosial-iqtisadi problemlərin həllini, korrupsiyaya qarşı mübarizəni və dövlət institutlarının modernləşdirilməsini hədəfləyir. Lakin İranın siyasi reallığı fərqlidir. Ölkə prezidentinin istəyi ilə korrupsiyalaşmış dini xuntanın fikirləri tam fərqlidir.***

## Məsud Pezeşkian "mollaların" hədəfində!

Xüsusilə avqustun 8-də Vaşinqtondakı mühüm tarixi hadisələrdən sonra bölgə ölkələri ilə normal və qarşılıqlı fayda şəraitində münasibət qurmaq çağırı edən İran Prezidenti mühafizəkarların hücumlarına məruz qalıb. Xatırladaq ki, İran Prezidenti Məsud Pezeşkian ilk dəfə Zəngəzur dəhlizi ilə bağlı mövqeyini açıq şəkildə bəyan edib. O, məsələ ətrafında yaradılan ajiotajın həqiqəti tam əks etdirmədiyini bildirib. "Bu dəhlizlə bağlı deməliyəm ki, məsələ xəbərlərdəki kimi şişirdilmiş deyil və bizdə olan məlumata görə, İranın ərazi bütövlüyü ilə bağlı tələbləri yerinə yetirilib", - o qeyd edib.

Pezeşkianın bu bəyanatı son aylarda İran rəsmilərinin, xüsusən də ölkə rəhbərinin müşaviri Əli Əkbər Vilayətinin səsləndirdiyi sərt mövqe fonunda gözlənilməz yumşalma kimi qiymətləndirilir. Xatırladaq ki, Vilayəti Zəngəzur dəhlizi layihəsini İranın milli birliyi və ərazi bütövlüyünə "böyük təhdid" adlandırmış, bu təşəbbüsün Cənubi Qafqazdakı geosiyasi balansı poza biləcəyini iddia etmişdi. Pezeşkian isə əksinə, məsələyə daha praqmatik yanaşaraq Tehran üçün əsas olan ərazi bütövlüyü prinsiplərinin qorunduğunu vurğulayıb. Bu mövqe dəyişimi Ermənistan və Azərbaycanın regiondakı birgə təşəbbüsünə qarşı sərt ritorika nümayiş etdirən bəzi İran siyasi dairələrinə də dolayı cavab xarakteri daşıyır. Əslində hazırkı iran Prezidenti fikirlərini siyasi reallığa söykənərək söyləyib. Çünki artıq Cənubi Qafqazda vəziyyət dəyişib. İndi Azərbaycan öz torpaqlarına sahib çıxmış güclü, iqtisadiyyatı stabil, dünyada nüfuzu artmış dövlətdir. Türkiyə kimi böyük bir dövlət açıq şəkildə Azərbaycana dəstəyini göstərir və türk birliyi ilə qürur duyur. Başqa sözlə, Qafqazda güc balansı dəyişib. Təkcə İranı yox, həm də 40 milyon Azərbaycan türkünü də təmsil edən Pezeşkian da ən real yolun Azərbaycanla dostluq, dialoq və iqtisadi əməkdaşlıqdan keçdiyini görür.

Bu dəyişiklik kimlərin xoşuna gəlmir?

Amma bu dəyişiklik klassik "təsir qüvvələri"nin xoşuna gəlmir. Dini radikallar və fars şovinist dairələr bu islahat xəttinə qarşı ciddi müqavimət göstərirlər. Onların hakimiyyət strukturlarındakı dərin kökləri və iqtisadi təsir mexanizmləri, ölkənin gələcəyini şəxsi və ideoloji maraqlar uğruna girov saxlayır. Bu dairələr üçün mövcud status-kvonun qorunması, İranın beynəlxalq arenada təcrid vəziyyətində qalmasından daha önəmlidir.

Tarixi faktlar və son illərin təcrübəsi göstərir ki, məhz bu qüvvələr İranın ən böyük problemlərinin qaynağıdır: sistemli korrupsiya, rüşvətxorluq, iqtisadi gerilik, cəmiyyətin siyasi passivləşdirilməsi, azad sözün boğulması və ölkənin modern dünyadan təcridi. Üstəlik, son hadisələr İranın hərbi və təhlükəsizlik sisteminin də reallıqda zəif olduğunu üzə çıxardı. Yəni radikal dairələrin illərlə qurduğu "məğlubedilməz dövlət" imici öz-özünü ifşa edib. Pezeşkianın qarşısında çətin bir seçim dayanır: ya radikal qüvvələrlə açıq qarşıdurmaya gedərək İranı islahat yoluna çıxarmağa çalışacaq, ya da siyasi kompromislərlə real dəyişiklik imkanlarını zəiflədəcək. Tarix göstərir ki, belə məqamlar dövlətlərin taleyində dönüş nöqtəsi ola bilir.

İran cəmiyyətində böyük bir hissə artıq anlamağa başlayıb ki, ölkənin inkişafı üçün ən böyük təhlükə xaricdən deyil, məhz daxildəki köhnəlmiş siyasi düşüncə və onun yaratdığı idarəetmə modelidir. Beləliklə, əgər bu maneə aşılmasa, Pezeşkianın islahat arzusu da, İranın normal beynəlxalq münasibətlər qurmaq şansı da reallığa çevrilməyəcək.

***Mətləb Salahov***

# Yeni trend: ana südü satışı



***ABŞ da ana südünün satışı son vaxtlar maraqlı bir trendə çevrilib — bəzi analıq dövründə olduğu kimi əlavə südü olan analar onu sataraq aylıq yüzlərlə, hətta minlərlə dollar qazana bilirlər.***



SİA mövzu ilə bağlı araşdırma aparıb.

ARAŞDIRMA

### Nə baş verir?

Yan gəlir mənbəyi: Məsələn, bir ana Facebook və digər platformalarda südünü satışa çıxararaq ayda 1 000 dollaradək gəlir əldə etdiyini bildirir.

Alıcılar kimlərdir? Adətən süd almaq istəyənlər arasında:

- O rəqəmsal adları (adoptiv valideynlər),
- Süd istehsal edə bilməyən analar,
- Bədən tərbiyəsi ilə məşğul olan bədən inkişaf etdirənlər (bodybuilder'lar),
- Və digər insanlar var.

Qiymətlər: Qiymətlər 0.50 1.50 dollar/unsiya arasında dəyişir. Bəzən başqa qaynaqlarda 4 5 dollar/unsiyaya qədər göstərilir.

### Hüquqi və tibbi rəylər

Qanuni vəziyyət: Ana südünü satmaq ABŞ-da qadağan deyil — federal səviyyədə şəkililə qadağan olunmasa da, tənzimləmələr yoxdur. Dövlətlər səviyyəsində vəziyyət qarışıqdır: bəziləri lisenziyalı süd banklarına qoyulur, bəziləri isə heç bir çərçivədə deyil.

FDA tövsiyəsi: Qida məhsulu kimi qarşılanır və FDA alıcı ilə satıcı arasındakı birbaşa satışlara qarşı ehtiyatla yanaşır, potensial təhlükələr səbəbilə məsləhət görür.

### Təhlükələr:

Rəsmən aşkarlanmış tədqiqatlar göstərir ki, onlayn satılan süd nümunələrinin 10 11%-i inək südü, su və ya başqa qarışıqlarla hazırlanmış ola bilər.

Kanalarda da müxtəlif infeksiyalara yoluxma riski var (məsələn, hepatit, HIV, bakteriyal infeksiyalar) .

Etik və sosial iqtisadi narahatlıqlar: Bu ticarətin aşağı gəlirli anaları sözdə "istismar" edəcəyi, sosio etik bərabərsizliyi dərinləşdirə bilər.

**Tövsiyə:** Uşaqlar üçün südə ehtiyac varsa, HMBANA nın lisenziyalı süd bankları — skrianq, pasterizasiyadan keçmiş, risk azaldılmış variantlar təklif edir .

Təhlükəsizliyə ciddi önəm verənlər üçün bunlar daha etibarlı seçimdir.

Ümumilikdə, ABŞ da ana südünün satışı real və genişlənən bir trenddir. Lakin səhiyyə və hüquq tərəfdən risklər ciddi müzakirə mövzusudur. Satıcı və ya alıcısınızsa — xüsusilə həkim və hüquq müşaviri ilə məsləhətləşmək doğru addım olardı.

Dünyada ana südünün satışı və ya kommersiyalaşması ABŞ dan başqa da bir sıra ölkələrdə — fərqli formalarda və şərtlərlə — müşahidə edilir:

### Qlobal tendensiyalar və tapıntılar

Şiddətli kommersiya forması: Hindistan, Kamboca, İngiltərə və ABŞ daxil olmaqla bir çox ölkədə "ana südü şirkətləri" formalaşmağa başlayıb — südü toplayıb, işləyərək fərdi alıcılara, hətta "sağlamlıq əlavəsi" kimi bazara təqdim edirlər.

Kambocada çıxış: O ölkədən ABŞ a süd ixrac edən şirkətlərə qarşı etirazlar nəticəsində Kamboca hökuməti bu cür əməliyyatlara qadağa qoyub .

İngiltərə nümunəsi: Orada südü — altı 50 ml şüşə üçün təxminən 45 funt sterlinqə — işləyib satan kommersiya obyektləri fəaliyyət göstərir .

Çində erotik xidmətlər: Bəzi rekreasiya müəssisələrində — məsələn, Pekində restoran səviyyəsində — süd əsaslı yeməklər və ya canlı içmə görüşləri ("wet nursing") təklif olunur; bu, daha çox erotik kontekstdə olur və hüquq orqanları tərəfindən dayandırılıb .

Reddit hesablarında tövsiyə: Avstraliyada ana südünün satılması qanunsuzdur, bağışa icazə verilir, lakin pul qarşılığında bu əməliyyatlar mümkün deyil.

### Qeyri-kommersiya və yardım təşəbbüsləri

Uganda (Kampala): ATTA Breastmilk Community adlı könüllü donor şəbəkəsi yaranıb — daha çox icbasız kömək məqsədilə ana südü toplayır və həkim nəzarəti altında riskli doğulan uşaqlara yardım edirlər.

Dünya üzrə süd bankları: İnsan südü bankları (Human Milk Banks) çoxsaylı ölkələrdə fəaliyyət göstərir. Məsələn, Braziliya (217 bank), Avropa (28 ölkədə 223 bank), Hindistan, Nigeriya, Sinqapur, Avstraliya və digər ölkələrdə müxtəlif proqramlar mövcuddur.

Pakistanda etirazlar: Karachi-də yeni açılan süd bankı (cüzamlı və ya erkən doğulmuş körpələr üçün nəzərdə tutulmuş) din alimlərinin etirazları səbəbilə açılmadan bağlanıb.

***Ayşən Vəli***

# "Bakcell" "11-ci Milli Seçim Konfransı"nın əsas tərəfdaşıdır




***İnnovasiya və sürət lideri "Bakcell" Avropa Gənclər Parlamentinin (AGP) Azərbaycan nümayəndəliyinin təşkilatçılığı ilə keçirilən "11-ci Milli Seçim Konfransı"nın əsas tərəfdaşıdır. AGP Azərbaycan tərəfindən 8–12 avqust tarixlərində təşkil edilən "Milli Seçim Konfransı" Azərbaycanın müxtəlif bölgələrindən və Avropa ölkələrindən olan fəal gəncləri bir araya gətirir. İştirakçılar tədbirlərdə və debatlarda rəqəmsal dövrün aktual mövzuları üzrə fikir mübadiləsi aparır və beynəlxalq sessiyalarda ölkəni təmsil etmək şansı qazanırlar.***

Tədbirin açılış mərasimində "Bakcell"in ictimaiyyətlə əlaqələr və korporativ kommunikasiyalar üzrə direktoru Aysel Süleymanova gəncləri salamlayaraq bildirib ki, rəqəmsallaşmanın sürətlə yayıldığı bir dövrdə innovasiyalar bir sıra fəaliyyət istiqamətlərində inkişaf imkanları yaradır. O, innovasiya mövzusuna əsaslanan bu cür görüşlərin gənclərin gələcək karyeraları üçün əhəmiyyətli olduğunu vurğulayıb.

Tədbirdə "Bakcell"in məhsul üzrə eksperti Rüfət Quliyevin təqdimatında "Süni intellekt və innovasiya" mövzusunda interaktiv sessiya keçirilib. Təlimin əsas məqsədi gənclərin rəqəmsal savadlılığını artırmaq, onları texnologiya və süni intellektdə ən son trendlərlə tanış etmək, həmçinin bu sahələrin gələcək imkanlarına dair düşüncələrinin formalaşdırılmasına dəstək olmaqdır. Sessiya zamanı innovasiyaların gündəlik həyata təsiri müzakirə olunub, iştirakçılar interaktiv tapşırıqlar vasitəsilə yaradıcı və innovativ ideyalarını nümayiş etdirmək imkanı əldə ediblər.

"Bakcell" bu təşəbbüslə korporativ sosial məsuliyyət (KSM) və dayanıqlılıq strategiyasını davamlı olaraq icra edir və cəmiyyətin dayanıqlı gələcəyinə öz töhfəsini verir. Şirkət gənclərin bilik və bacarıqlarının artırılmasına, innovativ düşüncə və liderlik potensialının təkmilləşdirilməsinə yönəlmiş sosial layihələri daim prioritet hesab edir.

**"Bakcell" haqqında**

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan "Bakcell" süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.

"Bakcell" müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

# “Əsas olan tərəflərin kimliyi, məqsədi və niyyətidir”



***“Onlayn tanışlıqların uğurlu ailəyə çevrilmə ehtimalı əsasən forma və məzmun məsələsinə bağlıdır". Bu sözləri SİA-ya açıqlamasında sosioloq Elçin Bayramlı deyib. O bildirib ki, tanışlıq prosesində istifadə olunan formalardan asılı olmayaraq — istər onlayn, istərsə də real görüşlər olsun — ən vacib olan tərəflərin kimliyi, məqsədi və niyyətidir: "İnsanlar sağlam əsaslarla bir-birilə tanış olursa, ailə qurmaq və ya dostluq münasibətləri yaratmaq istəyirsə, sosial şəbəkələrin imkanlarından faydalanmaq tamamilə mümkündür. Sosial şəbəkələr insanlara bir-biri ilə ünsiyyət qurmaq, fikirlərini paylaşmaq, qarşılıqlı anlayış yaratmaq üçün ümumi bir məkandır.***



## AYDINLIQ GƏTİRİLDİ

Məsələn, ölkənin fərqli şəhərlərində yaşayan iki insan sosial şəbəkələr vasitəsilə bir-birini tanıyır, söhbət edir, fikirlərini müzakirə edir. Bu, artıq müasir həyatın təbii bir parçasıdır. Əsas məsələ budur ki, burada məqsəd nədir? Əgər insanlar saf, düzgün niyyətlə onlayn platformalarda dostluq, tanışlıq qurur, daha sonra real həyatda görüşüb ailə də qura bilirlərsə, bu, tamamilə normal və qəbul edilən haldır. Hər şey insanların özündən asılıdır. İstər real, istərsə də onlayn mühitdə tanışlıq yalnız bir-biri haqqında ilkin məlumat əldə etməkdir. Əgər bu məlumatlar əsasında münasibət sağlam, təmiz niyyətlə inkişaf edirsə, bu dostluq və ailə üçün möhkəm zəmin yaradır”.

Sosioloq qeyd edir ki, əgər münasibətlərdə niyyət və mahiyyət sağlam deyilsə, əxlaqi və mənəvi dəyərlər gözlənilmirsə, bu, istər onlayn, istərsə də real həyatda ciddi problemlərə yol açar. Məqsəd və niyyətin düzgün olmaması münasibətlərin uğursuzluğuna səbəb olur. Bu baxımdan, formalara çox önəm verməmək lazımdır, çünki tanışlığın forması hər cür ola bilər. Son illərdə sosial şəbəkələrdə tanış olub sağlam ailə həyatı quranlar kifayət qədər çoxdur. Mən özüm də belə nümunələri görmüşəm — münasibətlər həm səmimi, həm də davamlıdır. Onlayn platformalar insanlara bir-birini tanımaq, psixoloji durumunu anlamaq, ünsiyyət qurmaq üçün geniş imkan yaradır. Daha sonra isə real görüşlərlə münasibətlər möhkəmlənir, evliliklə nəticələnir.

Ancaq təəssüf ki, sosial şəbəkələrdə sürətlə tanış olub, tez nikah quran bəzi insanlar məqsəd baxımından ziddiyyət yaşayırlar. Çünki münasibətlərin əsası və niyyəti tam aydın olmur, tanışlıq prosesi yetərincə dərinləşmir. Tarixən belə olub ki, insanlar ailə qurmazdan əvvəl bir-birlərini uzun müddət müşahidə edir, xarakterlərini, dəyərlərini, həyat tərzini öyrənirdilər. Əvvəl uzaqdan tanışlıq, sonra ailələr arasında görüşlər, elçilərin gəlişi və uzun bir müddət ərzində nişan mərasimi ilə toy mərasimləri keçirilib. Bu proses bir neçə il davam edir, tərəflər və ailələr bir-birini yaxşı tanımaq üçün vaxt ayırırdı.

Hazırda isə təəssüf ki, çox vaxt tanışlıq sadəcə ilkin bəyənmə üzərində qurulur: gözəllik, xarici görünüş, maddi imkanlar və s. Bu isə tez nikaha, sonra da boşanmalara gətirib çıxara bilər. Əslində, uzunmüddətli, sağlam və səmimi münasibət üçün vaxt amili vacibdir. İstər real həyatda, istərsə də onlayn tanışlıqda, tərəflər bir-birini yaxşı tanımalı, xarakterlərini, həyat tərzlərini, dəyərlərini öyrənməlidirlər. Bu, minimum bir neçə ay, bəzən illərlə davam edən prosesdir.

Yalnız belə şəraitdə gələcəkdə yarana biləcək problemlərin qarşısı alınır və münasibətlər sağlam zəmin üzərində qurulur. Məqsəd isə aydın və təmiz olmalıdır. Tərəflər mənəvi və əxlaqi prinsiplərə əsaslanan münasibət qurmalıdırlar ki, bu münasibət daha davamlı olsun. Bir neçə il ərzində bir-birini dərindən tanıyan insanlar, xüsusilə psixoloji uyğunluq, xarakter və həyat baxışları üst-üstə düşənlər ailə qurmaq üçün daha hazırlıqlı olurlar.

Yekun olaraq, forma heç bir zaman əsas olmayıb və olmamalıdır. Ən vacib olan məzmun, niyyət, məqsəd və münasibətlərin dərinliyi, sağlamlığıdır. İnsanlar nə üçün tanış olur, münasibət qurur, gələcəkdə nə üçün ailə qurmaq istəyirlər — bütün bunlar ön planda dayanmalıdır. Bu prinsiplər yerinə yetirildikdə, həm onlayn, həm də real həyatda qurulan münasibətlər uğurlu ola bilər və uzunömürlü ailələr formalaşa bilər. Əks təqdirdə isə, erkən evliliklər və qarşılıqlı anlaşılmazlıqlar qaçılmazdır. Buna görə də hər kəsə münasibətlərinə diqqət və zaman ayırmaq, niyyətini və məqsədini dəqiq müəyyənləşdirmək tövsiyə olunur.

***G. Fərzəliyeva***



# “Azərbaycan və ABŞ arasında yeni əməkdaşlıq dövrü başlayır”

***“Azərbaycan xarici siyasətində balanslaşdırıcı yanaşmaya üstünlük verir. Ölkəmiz beynəlxalq arenada qlobal güclərə qarşı tərəfsiz qalaraq, maraqlarını qorumağa və müstəqil siyasət yürütməyə çalışır".Bu sözləri SİA-ya açıqlamasında politoloq Azad Məsiyev deyib.***

Onun sözlərinə görə, bu çərçivədə Azərbaycan Qoşulmama Hərəkatının üzvüdür və şimalla, cənubla, şərqlə, qərblə əməkdaşlığını genişləndirməkdə davam edir. Həm iqtisadi, həm də siyasi sahədə balanslaşdırılmış siyasət yürüdülür və bu siyasətin əsasını beynəlxalq hüquq prinsipləri təşkil edir: ”Amerika Birləşmiş Ştatları (ABŞ) dünya səhnəsində güc mərkəzi kimi iqtisadi və siyasi təsir gücünə malikdir. Belə bir dövlətlə maraqların uzlaşdırılması və münasibətlərin inkişafı Azərbaycanın milli və dövlət maraqlarına tam uyğundur. Məlumdur ki, Tramp hakimiyyətindən əvvəl ABŞ ilə Azərbaycan arasında müəyyən soyuqluq mövcud idi. Bayden dövründə isə Azərbaycana qarşı gərgin münasibət hiss olunurdu və bu siyasət əsasən Ermənistan vasitəsilə həyata keçirilirdi. 907-ci düzəlişin tətbiqində israr edilərək Azərbaycan təzyiqə məruz qoyuldu. ABŞ Konqresində Azərbaycan əleyhinə dinləmələr keçirildi və bütün bunlar iki ölkə arasında əlaqələrin soyumasına səbəb oldu. Lakin Trampın hakimiyyətə gəlməsi ilə dünya geosiyasi vəziyyəti dəyişdi və Azərbaycan–ABŞ əlaqələri yaxşılaşdı. Bu, dövlət başçıları arasındakı şəxsi münasibətlərə də öz təsirini göstərdi. Bu baxımdan, Azərbaycan Prezidenti ilə ABŞ Prezidenti arasında keçirilən yüksək səviyyəli işgüzar görüş iki ölkə arasındakı münasibətlərin yenidən inkişaf etdiyinin mühüm göstəricisidir.

Bu münasibətlər gələcəkdə siyasi və iqtisadi sahədə yeni səviyyəyə yüksələcək, yeni əməkdaşlıq era¬sı başlayacaq. Hər iki dövlətin maraqları üst-üstə düşdüyü üçün münasibətlər daha da möhkəmlənəcək. ABŞ-ın Cənubi Qafqaz regionunda mühüm maraqları var və bu maraqları Azərbaycanla uzlaşdırmadan həyata keçirmək mümkün deyil. Xüsusən, Zəngəzur dəhlizinin uzunmüddətli fəaliyyətə başlaması üçün bu əlaqələrin yaxşılaşdırılması zəruridir. Azərbaycanlıların müəyyən narahatlıqlarına baxmayaraq, ABŞ-ın Cənubi Qafqazda maraqlarını həyata keçirməsi təbii qarşılanmalıdır, çünki regionda aparıcı dövlət olaraq Azərbaycan razılığını almadan bölgədə hər hansı layihənin uğurla həyata keçirilməsi mümkün deyil. ABŞ-ın Cənubi Qafqazda strateji maraqları var və bu maraqları Azərbaycanla əlaqələri gücləndirmədən təmin etmək mümkün deyil. Azərbaycanda da ABŞ ilə münasibətlərin strateji əhəmiyyət daşıdığı vurğulanır”.

Politoloq qeyd edir ki, Azərbaycanın xarici siyasətinin təməlində balans siyasəti dayanır. Dövlət qonşularla yanaşı yaşama prinsiplərinə sadiqdir və xüsusilə Ermənistan ilə münasibətlərdə Rusiyanın vasitəçiliyi ilə müxtəlif təşəbbüslər göstərilmişdir. 2020-ci ilin 44 günlük müharibəsindən sonra Azərbaycan Prezidenti Rusiya ilə beş əsas prinsip əsasında əməkdaşlıq barədə razılaşma imzalamışdı. Təəssüf ki, Ermənistan bu konstruktiv mövqedən uzaq qalmaqda davam edir. Uzun müddətdir gedən danışıqlar müxtəlif bəhanələrlə uzadılır, nəticədə isə vəziyyət dəyişmir. Azərbaycan həm regional, həm də qlobal səviyyədə siyasətini balanslaşdırmağa davam edir. Bu siyasət regionda sülhün bərqərar olunması və beynəlxalq aləmdə Azərbaycanın mövqeyinin güclənməsi istiqamətindədir. Azərbaycan Prezidenti həm regionda, həm də qlobal səviyyədə sülhün təmin olunması üçün təşəbbüslər göstərir.

İsrail ilə Suriya arasında vasitəçilik rolunu Azərbaycan oynadı, Türkiyə ilə İsrail arasındakı münasibətlərin yaxşılaşmasında Azərbaycan Prezidentinin mühüm xidmətləri oldu. Eyni zamanda, Türkiyə ilə Rusiya arasında münasibətlərin normallaşmasında da Azərbaycan Prezidentinin rolu əhəmiyyətlidir. Beləliklə, Azərbaycan Prezidenti həm daxildə, həm də dünyada sülh fəlsəfəsini həyata keçirir, qonşularla sülh şəraitində yaşamağa çalışır və beynəlxalq səviyyədə sülh missiyasını uğurla davam etdirir. Çünki regionda və qlobal səviyyədə sülhün olmaması iqtisadi maraqların reallaşmasına ciddi əngəl yaradır. Bu səbəbdən Azərbaycan xalqı, nə qədər kiçik olsa da, xarici siyasətdə və beynəlxalq arenada söz sahibi olmaq imkanlarını artırır. Bu, ABŞ Prezidenti Trampın Mespah Konfransında Azərbaycan Prezidenti haqqında söylədiyi yüksək qiymətləndirmə ilə də təsdiqlənir. Azərbaycan Prezidentinə olan diqqət və hörmət onun regionda və qlobal səviyyədə nüfuzunun artdığını bir daha göstərir.

***Günel***

ŞƏRH

# Kənddə yaşayaq, yoxsa şəhərdə?: Problemlər və üstünlüklər

***Müasir insanlar 2 cür həyat keçirir- bir-birindən çox fərqli 2 həyat tərzi. Birincisi, ta qədimlərdən təbii insan məskəni olan kənd həyatı, digəri inkişafın sonrakı mərhələlərində formalaşmış şəhər həyatı. Hər ikisinin özünün üstün və çatışmayan cəhətləri var. Lakin son zamanlar urbanizasiya tendensiyasının sürətlə inkişafı insanların daha çox şəhərlərə can atdığını göstərir. Niyə?***

## *Boşalan kəndlərimiz və dolan şəhərlərimiz - bu problemdən necə qurtula bilərik?*



### Kənd həyatı insanları niyə cəlb etmir?

Kəndlər adətən gözəl təbii şəraitə, münbit torpaqlara, yaşıl örtüyə, təmiz havaya, saf suya malik ərazilərdə təşəkkül tapır. Burada həyat təbiidir, insanlar təbiətlə harmoniyada yaşayır, heyvanlarla ünsiyyətdə olur, meşədə, çay kənarında, dağ başında işləyir, istirahət edir, bir sözlə yaşayırlar. Tarlalarda yaşıl otlar, qarışıq rəngli, əvəzedilməz ətirli çiçəklər var. Hər yerdə müxtəlif quşlar, heyvanlar, bulaqlar, böyük dağlar, meşələr var.

Kəndlərdə məhsullarını özləri istehsal edən insanlar tarlalarda, dirriklərdə çalışırlar. Zəhmətkeş kəndlilər öz əlləri ilə təbii, sağlam meyvə və tərəvəz yetişdirir, saxladıqları ev heyvanlarından keyfiyyətli süd məhsulları, yumurta, bal və sair məhsular əldə edirlər.



Kənddə kinosalon, teatr, böyük ticarət mərkəzləri olmasa da, insanlar darıxmırlar. Çünki onlar normal qonşuluq, qohumluq münasibətləri saxlayır, bir-biri ilə daha çox ünsiyyətdə olur, boş zamanlarını çox maraqlı keçirirlər. Məsələn, axşamlar bir-birinə qonaq gedir, söhbət edir, bağçada çay içirlər. Uşaqlar həyətdə bir-biri ilə oynayır, böyüklər nərd, şahmat, domino kimi stolüstü oyunlarda "qırğına" çıxırlar.

Uşaqlar hər gün təmiz havada, çəmənlikdə oynayır, çayda və ya göldə çimir, kollardan moruq, qonşu baxçaların ağaclarından meyvə "oğurlayırlar". Kənd uşaqları məktəbdənkənar boş vaxtlarında "min oyundan çıxırlar"- ağaca dırmaşır, suda üzür, ata minir, dağlara dırmaşır, tarlada ailələrinə kömək edirlər. Oğlanlar meşədən odun, qızlar çay dəmləmək üçün müxtəlif çiçəklər, göbələklər yığırlar.

Kənddə hamı üçün, xüsusilə analar üçün gün çox erkəndən başlayır- saat 7-dən. Çünki onlar səhər tezdən süd sağır, samovar qaynadır, yemək hazırlayır, uşaqları məktəbə yola salanadək çalışırlar. Hər səhər uşaqlar günə təmiz süd və təzə yumurta, bal, pendir, çörəklə başlayır.

Şəhərlilərin bəyənmədiyi kənddə mədəniyyət adına lazım olan ən vacib obyeklər də var- mədəniyyət evləri, klub, kitabxana və s. Düzdür, indi onların çoxu ya işləmir, ya da onlardan istiadə edən çox azdır, lakin yaxın keçmişdə kəndlilər üçün kino, teatr, konsert, kitabxana, klublar adi həyat tərzi idi.

Kənd həyatını ümumi təsvir etmək belə həyatın daha gözəl olduğunu göstərməyə kifayət edər. Bir sözlə kənd həyatı tam təbii, sağlam, sakit həyat təzidir. Məz bu üzdən onar şəhərlilərə nisbətən daha çox yaşayır, daha sağlam olurar, həkimlərə işləri nadir hallarda düşür.

### Şəhərlərdə nə var ki, hamı ora axışır?

Şəhəri daha çox gənclər sevir. Bunun müxtəlif səbəbləri var. Son dövrlər əyləncəyə maraq həddsiz artıb. Şəhər əyləncə mərkəzləri və ya kino, teatr, mağaza, market, bazar, bank, universitet, kazino, idman salonları, xəstəxanalar, diskobarlar, parklar və sair əyləncə mərkəzləri ilə doludur.

Gənclər diskoya, kazinoya, idman salonuna getməyi, parklarda gəzməyi, müxtəlf əyləncə məkanlarına baş çəkməyi sevirlər. Amma yaşlı insanlar təbii və rahat bir həyat yaşamaq istəyirlər. Burda həyat darıxdırıcı keçməz. Lakin bu maraq yaxşı iş, yüksək qazanc tələb etdiyi kimi, sağlamlığın itirilməsi ilə də nəticələnir.



Şəhərdə gün dan yeri ağaranda yox, xeyli gec- təxminən 8 radələrində başlayır. Bu vaxtdan sonra etibarən küçələr izdihamlı olur, avtomobil əlndən tərpənmək olmur. İnsanlar hər gün eyni, standart həyat yaşayır. Onlar səhərlər işlərinə gedirlər və axşamları dönürlər. Yanız bazar günləri ailəsi ilə birgə rahat vaxt keçirə bilərlər.

Şəhərlərdə qonşuluqdan danışmağa belə dəyməz, qohumlarla münasibətlər isə yalnız xeyir-şər məclislərində baş tutur. Hətta, bəzi ailələrdə ailə üzvləri bir-birini görə bilmirlər, biri işdən gələndə digəri işə gedir, valideyn evə gələndə uşaq yatmış olur.

Sosioloqların fikrincə, kəndlərdən iri şəhərlərə köçən ailələrin sıx qohumluq əlaqələri 2 nəsil sonra yox olur. Xalalar, dayılar, bibilər, əmilər 2 nəsil sonra tədricən seyrəkləşir və tanınmır. Yalnız qardaş, bacı əlaqələri zəif də olsa qalır. Şəhərin böyük "dəyirmanı" bütün qohumluq əlaqələrini "üyüdür". Bunu çox vaxt müvəqqət olan yoldaşlıq, tanışlıq münasibətləri əvəz edir.

Şəhər həyatı daha çox ictimailəşmə, dünyagörüş, mədəniyyətin içində olma, karyera və təhsil imkanları kimi bir çox üstünlük verir. Şəhərlər istədiyimiz şeyləri əldə edə bilmək üçün də bizə böyük imkanlar təmin edir. Şəhərlərdə nə etmək istəyirsinizsə, onu edə bilərsiniz. Lakin bunun üçün çoxlu işləmək, sağlamlığı qurban vermək tələb olunur. Ekoloji çirklənmə yüksək səviyyədə, stress maksimumda, qidalanma zərərli, istirahət yorucu...

Şəhərlərə axının başqa bir səbəbi də rahat və gəlirli iş tapmaq ümidi ilə bağlıdır. Daha çox gənclər şəhərdə işləyib yaxşı pul qazanandan sonra kəndə qayıdacağını deyir, lakin vaxt gəlib keçir bir də ayılır ki qocalıb...arzular, xəyallar reallığın qatı dumanında yox olub. Necə deyərər, incəsənət qurban tələb edir.

Şəhərdə insanlar beləcə "mədəni" həyat yaşayırlar...

### Seçim üçün qısa müqayisə predmetləri

Kənd həyatının üstünlükləri;



- ən əsası siz təmiz hava ilə nəfəs alırsınız;
- saf su içir, təbii qidalanırsınız;
- fiziki aktivlik sağlamlığa təminat verir;
- qohum və qonşularla ünsiyyət bolluğu;
- təhlükəsiz həyat tərzi;
- sakit mühitdə, stessiz həyat tərzi;
- tələbatın azlığı çox işləmək zərurəti yaratmır;
- siz daimi kurortdasınız

Şəhər həyatının əsas zərərləri;
- hava və səs-küy çirkliliyi;
- dolanışıq çətinliyi;
- gündə bir neçə saatın yolda itirilməsi;
- sıxlıq və tıxac problemi;
- cinayətkarlığın yüksək olması;
- təbiətdən uzaq qalmaq;
- keyfiyyətsiz qidalanma;
- bahalı həyatı təmin etmək üçün gərgin işləmək

### Tanrı kəndləri, insanlar şəhərləri yaratdı

Əhalinin sıx yaşadığı yerlərin istənilən baxımdan sağlam həyat prinsiplərinə zidd olmasını istər məntiqi, istər də təcrübi yolla fəhm etmək çətin deyil. Digər tərəfdən, bir ölkədə əhalinin sırf iri şəhərlərdə cəmlənməsi iqtisadi və sosial problemləri dərinləşdirir. Bir çox hallarda isə, bu amil ekoloji problemlərin təkanvericisinə çevrilir. Bu halda, şəhərlərdə yaşamaq sağlamlıq riskindən başqa bir şey deyil.

Çirkli hava ilə nəfəs almağa, tərkibi təsəvvürə gəlməyən süni konservantlarla doldurulmuş fabrikat və polufabrikatlarla qidalanmağa, fasiləsiz səs-küyləri dinləməyə məhkum olmuş insanların sağlam yaşamaq imkanları çox məhduddur.

Həkimlərin fikrincə, 10 yaşadək uşaqların şəhərdə yaşaması isə daha dəhşətli nəticələr verir. Əvvəla ona görə ki, ən ağır atmosfer çöküntüləri havanın yerdən 1 metr qalınlıqdakı qatında cəmləşir və azyaşlı uşaqlar məhz bu qatlarda nəfəs alırlar.

İkincisi, bu yaş dövrü insan orqanizminin təşəkkül dövrü olduğu üçün çirkli hava və toksik maddələrlə zəngin qidalar onu elə bu yaşdan xəstəliklərin ağuşuna yuvarlayır. Bütün bu problemlərdən uzaq olmağın ən ideal yolu kənd yerlərində yaşamaq, öz öz əlinlə becərdiyin meyvə-tərəvəz və süd məhsulları ilə qidalanmaqdır.

### "Kəndə qayıdış" proqramı vəziyyəti dəyişə bilər

Bu yazıda 2 həyat tərzini qısa və ümumi şəkildə ortaya qoymağa çalışdıq. Şəhər həyatı maraqlıdır, lakin stresli və çox bahalıdır, kənd həyatı isə sadədir, təbiidir, sağlamdır, üstəlik ucuz başa gəlir. Hər kəs öz seçmini düzgün etsə, sonda həyatından şikayətlənməz. Nəyi nəyə qurban verdiyimizi düşünərək seçim etsək, yanılmarıq.



Getdikcə, kəndlərimiz boşalır, böyük şəhərlərdə isə əhali kəskin artır. Urbanizasiya özü ilə ciddi həllolunmaz problemlərə gətirir. Ona görə də de-urbanizasiya prosesinin başlanması lazımdır. Bunun üçün təm dövlət siyasəti, həm social-iqtisadi dəstək, həm də maarifləndirmə lazımdır. Tarazlı və davamlı inkişaf məqsədləri bunu tələb edir. Ölkə əhalisi və iqtisadiyyatı ölkə üzrə bərabər paylanmalıdır.

Son dövrlər televiziyalarda şəhər həyatının təbliği, kənd həyatının lağa qoyulması da insanlara psixoloji təsir göstərir. Həmçinin, kənddə iş tapmamaq, əkin-biçin işlərindəki problemlər kəndliləri şəhərlərə köçməyə məcbur edir. Artıq ölkə əhalisinin təxminən yarısı- 5 milyona yaxın insan Bakı və ətrafında cəmləşib. Bu səbəbdən də hesab edirik ki, indi prosesi əksinə döndərməyin vaxtıdır.

Fikrimizcə, hökumət "Kəndə Qayıdış" proqramı elan etməli, kəndlərə qayıdan, orada təsərrüfat yaradıb yaşayanlara xüsusi güzəştlər və dəstək verməlidir. Bu halda əhalimiz ölkə üzrə bərabər paylanar, şəhərlərdəki dəhşətli vəziyyət aradan qalxar, ölkədə məhsul bolluğu artar. Son nəticədə, həm iqtisadi, həm sosial inkişaf güclənər, həm də demoqrafik vəziyyət normallaşar. Bunun üçün ölkəmizin və dövlətimizin lazım olan bütün imkanları var. Sadəcə bunu həyata keçirmək qalır.

***Elçin Bayramlı***

TƏKLİF




# "Türkiyə Zəngəzur razılaşmasını alqışladı"

*"Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Ermənistan Baş naziri Nikol Paşinyan və Azərbaycan Prezidenti İlham Əliyev arasında imzalanan sülh sazişi region üçün mühüm siyasi hadisə oldu".Bu sözləri SİA-ya açıqlamasında türk jurnalist Ayşegül Akyüz Yahşi deyib. Onun sözlərinə görə, bu razılaşmaya Zəngəzur dəhlizinin yeni tranzit keçidinə çevrilməsi məsələsi də daxildir və Türkiyə bu addımı məmnunluqla qarşıladı: "Türkiyənin xarici işlər naziri Hakan Fidan sazişi "fövqəladə dərəcədə önəmli" adlandıraraq, Zəngəzur dəhlizinin Avropadan Asiyaya uzanan fasiləsiz nəqliyyat xəttinin əsas dayaqlarından biri olacağını vurğuladı.*



## MÜNASİBƏT

Bununla yanaşı, İran tərəfi Azərbaycan-Ermənistan sülh razılaşmasında nəzərdə tutulan "Tramp dəhlizi"nə qarşı sərt mövqe sərgilədi. "Tramp Beynəlxalq Sülh və Rifah Marşrutu" (TRIPP) Cənubi Ermənistandan keçərək, Azərbaycanın öz ərazisindəki Naxçıvanla birləşəcək, ordan isə Türkiyəyə birbaşa çıxış təmin edəcək. İranın bu layihəni necə əngəlləməyə çalışacağı hələlik bəlli olmasa da, ölkənin ali dini liderinin baş müşaviri Əli Əkbər Vilayəti verdiyi bəyanatda sərt ifadələr işlədərək, "Bu dəhliz Trampın nəzarətində olan bir keçid olmayacaq, onun muzdlularının məzarlığı olacaq" deyə bildirib.

Rusiya, sərhəd qoşunlarının Ermənistan–İran sərhədində yerləşməsinə baxmayaraq, görüşdə tərəf kimi iştirak etməyib. Moskva, rəsmi olaraq zirvəni dəstəklədiyini açıqlasa da, Qərbin Yaxın Şərqdəki vasitəçilik təşəbbüslərinin "acı təcrübəsi"nin təkrarlanmaması üçün, region ölkələrinin öz həll yollarını Rusiya, İran və Türkiyənin dəstəyi ilə həyata keçirməsinin vacibliyini irəli sürüb.

Beynəlxalq Krizis Qrupunun Cənubi Qafqaz üzrə baş analitiki Coşua Kuçera isə Trampın düşündüyü qədər asan qələbə qazana bilmədiyini, imzalanan sənədlərin bir çox sualı cavabsız qoyduğunu bildirib. Onun sözlərinə görə, gömrük nəzarətinin, təhlükəsizliyin necə təmin olunacağı və Ermənistanın Azərbaycan ərazilərinə qarşılıqlı çıxış imkanlarının hüquqi məzmunu kimi məsələlər hələ də aydın deyil və bu, ciddi maneələr yarada bilər.

Azərbaycan, həm İranla qonşu olması, həm də enerji ehtiyatlarına görə İsrailin Cənubi Qafqazda ən çox önəm verdiyi ölkədir. İsrail üçün əsas məqsəd yeni müstəqillik qazanmış müsəlman ölkələri — xüsusilə Azərbaycan və Qazaxıstan — ilə əməkdaşlığı inkişaf etdirərək bu modelin bölgədə nümunəyə çevrilməsidir. Azərbaycandakı yəhudi icmasının mövcudluğu, rəsmi Bakını İsraillə münasibətləri qorumağa məcbur etsə də, İslam dünyasının mühüm bir hissəsini təmsil edən bir ölkənin lideri olaraq İlham Əliyevin bu münasibətləri balanslı şəkildə idarə etməsi, zalımla məsafəni qoruması vacibdir. Çünki ABŞ-ın İsrailə göstərdiyi maliyyə və hərbi dəstək fonunda "Tramp marşrutu" İsrailin Cənubi Qafqaz ticarətində pay sahibi olmasına, yəhudi lobisinə yeni bazar və imkanlar açmasına şərait yarada bilər".

Jurnalist qeyd edir ki, Ermənistanın bu dəhliz razılaşması ilə İsraillə ikitərəfli əlaqələr qurması isə bölgədə təhlükələrin artmasına yol aça bilər. Bu səbəbdən Əliyevin əvvəlkindən də ehtiyatlı davranması, ABŞ–İsrail–Ermənistan üçlüsünün təzyiq dairəsinə düşməməsi, qazandığı uğurları itirməməsi zəruridir. O, soyqırım ortağını Nobel Sülh Mükafatına layiq görmək kimi yanlış addımlardan çəkinməli, Trampın saxta qələbə şüarlarına aldanmamalıdır. Azərbaycanın ən böyük dəstəkçisi və qardaş ölkəsi Türkiyənin rəhbərliyi ilə hərəkət etməsi, Tramp marşrutunu Türk dövlətlərinin və bütün region aktorlarının təhlükəsizliyi üçün etibarlı hala gətirə bilər.

Türkiyə, özünün əldə etdiyi nailiyyətləri Tramp kimi rol oğrusu bir siyasətçiyə buraxmayacaq. Süleyman Dəmirəlin prezidentliyi dövründə olduğu kimi, Kafkasya'da Aras çayı qədər uzun, Xəzər qədər dərdli vətən sevdalısı Əbülfəz Elçibəyi, eləcə də Bosniya-Hersekdə müdrik lider Əliya İzzetbeqoviçi dəstəkləməyərək tarixin axarına təsir etmək imkanını qaçırmayacaq. Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyindəki Türkiyə, həm regional, həm də beynəlxalq miqyasda malik olduğu mövcud gücü ilə, təkcə şahidi deyil, eyni zamanda tərəfi olduğu tarixi prosesin istiqamətini müəyyənləşdirəcək. Lazım gələrsə, ABŞ və İsrailin ekspansionist və işğalçı siyasətinə qarşı Türk dünyası adından, bölgədə bütün hesabları dəyişdirəcək strateji addımlar ata biləcək.

***Günel Fərzəliyeva***

# Azərbaycan qanunvericiliyində analıq hüquqları necə qorunur?

***"Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 125-ci maddəsinə əsasən, hamiləlik dövründə və doğuşdan sonrakı dövr üçün işləyən qadınlara 126 təqvim günü (doğuşdan əvvəl 70 təqvim günü və doğuşdan sonra 56 təqvim günü) müddətində ödənişli məzuniyyət verilir. Doğuş çətin olduqda, iki və daha çox uşaq doğulduqda doğuşdan sonrakı məzuniyyət 70 təqvim günü müddətində verilir". Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib.***



## VƏKİL AÇIQLADI

Turan Abdullazad sözlərinə belə davam edib: "Kənd təsərrüfatı istehsalında çalışan



qadınlara hamiləliyə və doğuşa görə məzuniyyət aşağıdakı müddətlərdə verilir:

1) normal doğuşda 140 təqvim günü (doğuşdan əvvəl 70 təqvim günü və doğuşdan sonra 70 təqvim günü);



2) doğuş çətin olduqda 156 təqvim günü (doğuşdan əvvəl 70 təqvim günü və doğuşdan sonra 86 təqvim günü);

3) iki və daha çox uşaq doğulduqda 180 təqvim günü (doğuşdan əvvəl 70 təqvim günü və doğuşdan sonra 110 təqvim günü).

Uşağa bilavasitə qulluq edən valideynlərdən biri, yaxud ailənin başqa üzvü uşağın üç yaşı tamam olanadək ona qulluq etməkdən ötrü qanunvericiliklə müəyyən edilmiş məbləğdə müavinət verilən qismən ödənişli sosial məzuniyyət almaq hüququna malikdirlər.

Uşağa qulluq edən işçi yazılı ərizəsi əsasında qismən ödənişli sosial məzuniyyət hüququndan tam, yaxud hissə-hissə istifadə edə bilər.

Uşağa qulluğa görə qismən ödənişli sosial məzuniyyətdə olanlara verilən müavinətin artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, 2016-cı il fevralın 1-dən bir yaş yarımadək uşağa qulluğa görə qismən ödənişli sosial məzuniyyətdə olanlara verilən aylıq müavinətin məbləği 44 manat, bir yaş yarımdan üç yaşınadək uşağa qulluğa görə isə həmin müavinətin məbləği 28 manat miqdarında müəyyən edilmişdir. Hamilə və ya 3 yaşına çatmamış uşağın olması səbəbinə görə qadınla əmək müqaviləsinin bağlanmasından imtina etmək yolverilməzdir. Bu qayda işəgötürənin müvafiq işi (vəzifəsi) olmadığı, habelə bu Məcəllənin 211-ci maddəsinin 1-ci hissəsinin beşinci və altıncı abzaslarında nəzərdə tutulan iş yerlərinə (işlərə) işə götürməkdən imtina olunan hallara şamil olunmur.

İşəgötürən hamilə və ya 3 yaşına çatmamış uşağı olan qadınla bu səbəblərə görə əmək müqaviləsi bağlamaqdan imtina etdikdə, qadın imtinanın səbəbi barədə işəgötürəndən yazılı cavab verilməsini tələb etmək hüququna malikdir. Əmək müqaviləsi bağlamaqdan imtina edilməsinin səbəblərinə görə qadın hüququnun müdafiə olunması üçün məhkəməyə müraciət edə bilər. Hamiləlik və ya uşağının yedizdirilməsi səbəblərinə görə qadınların əmək haqqının azaldılması qadağandır.

Tibbi rəyə uyğun olaraq hamilə qadınlar üçün hasilat və ya xidmət norması azaldılır, yaxud onlar zərərli istehsal amillərinin təsirini istisna edən daha yüngül işə keçirilirlər. Hamilə və 3 yaşınadək uşağı olan qadınların həm özünün, həm də uşağının tibb müəssisələrində dispanser və ambulator müayinələrinin keçirildiyi, həkim məsləhətləri aparıldığı günlərdə orta əmək haqqı saxlanılır. Belə müayinələrin keçirilməsi üçün işəgötürən hökmən hamilə qadınlara zəruri şərait yaratmalıdır".

***Ayşən Vəli***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# ZƏNGƏZUR DƏHLİZİ: 5 illik zəhmətin ZƏFƏRİ



***İlham Əliyev: Bu nəqliyyat marşrutu - qısaltması TRIPP kimi səslənən "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" daha bir tarixi nailiyyət olacaq. Amma yenə də, daha əvvəl qeyd etdiyim kimi, vaxt itirməməliyik. Biz bu işlərlə mümkün qədər tez məşğul olmalıyıq. Birləşmiş Ştatlar bu marşrutu idarə edəcək və ümidvaram ki, regiondakı bütün xalqların xeyrinə bu əlaqə xətlərini qurmaq üçün həmin mühüm vəzifələri öz üzərinə götürəcək investorlar tapılacaq.***

1988-1993-cü illərdə Ermənistan Azərbaycana qarşı tamah dişini qıcayanda və bir-birinin ardınca torpaqlarımızı işğal edəndə Naxçıvan üçün də olmazın çətinlikləri yarandı. Çünki Naxçıvanın işğalı da düşmənin baş planında əsas yer alırdı. Başlanğıc olaraq artıq 88-89-cu illərdə Bakı-Naxçıvan qatarlarında hər gün yeni-yeni hadisələr törədilirdi. Qatarlar əvvəlcə daş yağışına tutulur, daha sonra isə güllələbaran edilirdi. Vaqonlar, pəncərələri deşik-deşik idi, yaxud da pəncərə şüşələri tamamilə qırılıb tökülmüşdü, yerinə nazik taxta lövhələr vurulmuşdu. Maşinistlər iki gündən bir döyülüb, təhqir edilirdi. Sərnişinlərin taleyi təhlükə altında idi və bu, ozamankı Azərbaycan rəhbərliyini əsla narahat etmirdi. Lakin naxçıvanlılar yenə də qatarlardan istifadə etmək məcburiyyətində idilər. Çünki paytaxt Bakıya bu nəqliyyat vasitəsi ilə gedib-gəlmək ucuz başa gəlirdi və odövrkü iqtisadiyyatı tənəzzülə uğramış ölkənin unudulmuş regionu olan Naxçıvanın əhalisi çox kasıb vəziyyətdə yaşadığı üçün həyatları təhlükə altında olsa da, bu nəqliyyatdan istifadə edirdilər.

Ermənistan ərazisindən Naxçıvana gələn elektrik enerjisi mütəmadi kəsilir, qaz kəməri partladılırdı. Nəticədə isə bu yerin əhalisi həftələrlə, aylarla işıqsız, qazsız qalır, qış aylarında Naxçıvanın sərt kontinental iqlimində soyuqdan donurdular. Elektrik enerjisinin kəsilməsi zavod, fabriklərin fəaliyyətinin dayanmasına, iş yerlərinin bağlanmasına, əhalinin aclıq, səfalətlə üzləşməsinə, xüsusilə isə informasiya blokadasına salınmasına səbəb olmuşdu. Əhali ölkədə olan hadisələrdən bixəbər yaşayırdı.

Prezident İlham Əliyev həmin günləri belə xatırlayır: "Mənim yadımdadır, 1990-cı illərin əvvəllərində atamın yanına gələrkən qaranlıq içində yaşayırdıq, biz özümüzü şam işığı ilə təmin edirdik. Ulu öndər Heydər Əliyev iş kabinetində neft lampasının işığında işləyirdi. Yəni biz o günləri yaxşı xatırlayırıq.

## Təklənmiş adaya bənzəyən Naxçıvan

Ozamankı Azərbaycan rəhbərliyinin Naxçıvana ögey münasibətini də xatırlasaq, muxtar respublikanın son dərəcə acınacaqlı durumu göz önünə gəlir. Belə bir vaxtda Ulu Öndər Heydər Əliyevin Naxçıvana gəlişi əhalinin əsl nicatına çevrildi, hamı Onun timsalında böyük xilaskarını tapdı.

22 iyul 1990-cı il tariximizə böyük bir mərhələnin başlanğıcı, eyni zamanda naxçıvanlıların xilası tarixi kimi daxil oldu. On minlərlə insan muxtar respublikanın şəhər, qəsəbə və kəndlərindən axın-axın Naxçıvan şəhərinə, Ulu Öndərin ziyarətinə gəlir, ona tükənməz sevgisini bildirirdi. Elə həmin gün Naxçıvan şəhərinin mərkəzi meydanında keçirilən möhtəşəm mitinq də yüz minə yaxın insanın iştirakı da dahi rəhbərə xalqın sonsuz məhəbbət və inamının təntənəsi idi.

Təklənmiş bir adaya bənzəyən Naxçıvan görkəmli şəxsiyyətin gəlişi ilə nicat yoluna çıxdı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev deyir: Sovet İttifaqının dağıldığı ərəfədə və ondan sonra Naxçıvan çox ağır günlər yaşayıb. O illərdə ancaq Ulu Öndər Heydər Əliyevin əzmkarlığı, qətiyyəti və siyasi bacarığı Naxçıvanı böyük bəlalardan qorudu. Azərbaycana edilmiş hərbi təcavüzdən – 1990-cı ilin 20 Yanvar faciəsindən sonra Heydər Əliyev sovet rəhbərliyini kəskin şəkildə ittiham etdi və Sovet İttifaqı Kommunist Partiyasından çıxdı. Bundan sonra ona qarşı böyük təzyiqlər başlandı. O, məcbur olub Moskvadan Bakıya döndü. Ancaq Bakıda ovaxtkı rəhbərlik təzyiqləri davam etdirirdi və Heydər Əliyev öz Vətəninə, doğulduğu yerə – Naxçıvana gəldi. Onun gəlişi Naxçıvanı böyük bəlalardan qurtardı. Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu.

İllər ötdükcə, blokada Naxçıvanı düşmənə meydan oxudu. Məhv olma¬ması, yaşaması ilə onların gözdağına çevrildi. Blokada Naxçıvanı informasiya blokadasını yarıb səsini dünyaya yaydı. Mənsub olduğu ölkə¬nin rəhbərliyinin cəsarət edib toxuna bilmədiyi məsələlərə toxundu. 1990-cı il noyabrın 17-də Naxçıvan parlamentinin dahi şəxsiyyət Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət bayrağı kimi qəbul edilməsi haqqında tarixi qərar imzalandı. Dahi şəxsiyyətin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "sovet sosialist" sözləri çıxarıldı. Azərbaycanın müstəqilliyinə gedən yol Naxçıvandan başlandı.

*Ardı Səh.15*



**Əvvəli-Səh-14**

Bu yolun bələdçisi isə Ulu Öndərimiz Heydər Əliyev idi. 1991-ci ildə qazandığımız və 1920-ci ildəki kimi itirilmək təhlükəsi qarşısında olan müstəqilliyimiz məhz Ümummilli Liderimizin sayəsində xalqa bəxş olundu.

### Qarabağın işğalı ilə yaşıd Naxçıvan blokadası

Biz 5 il əvvələ kimi 30 ilin torpaq həsrətliləri, həm də 30 ilin blokada Naxçıvanının insanları idik. 1990-cı illərin alın yazısına çevrilən bu iki acının da düyünü çözülüb artıq. Ölkə Prezidentinin həm hərb meydanında, həm siyasi müstəvidə bütün dünyaya nəyə qadir olduğumuzu göstərməsi ilə, dəmir yumruq ətrafında birləşməyimizlə, övladımızı itirib "Vətən sağ olsun!" deməyimizlə, dağılan, viranə qalan evlərimizə alın belə qırışdırmamağımızla, uçuq-söküklər altından yalnız bayrağımızı xilas edib köksümüzə sıxmağımızla bütün dünyaya milli mənliyin, torpaq sevgisinin nə olduğunu bəyan etdik. İndi illərlə acılarımıza susan dünya ölkələrinə həm hərbimizlə, həm də mənəvi dəyərlərimizlə örnəyik.

İkinci Vətən müharibəsi həm Qarabağla yaşıd olan Naxçıvan blokadasının 30 illik düyününü açmağa başladı. Müharibə bitən gün artıq Naxçıvanın da Qarabağ torpaqları kimi, həsrət qaldığı anası Azərbaycanın qoynuna sığına biləcəyi, həsrətin sona yetəcəyi ümidləri yarandı insanlarda. Çünki buna düşünülmüş siyasətin bəhrəsi olan 10 noyabr Bəyanatı ilə nail olmaqdaydıq. Ölkə Prezidentinin xalqımıza müraciətindən: "Doqquzuncu bənddə göstərilir ki, bölgədəki bütün iqtisadi nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşlarının nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir və tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək. Bu 9-cu bənd sırf mənim təkidim nəticəsində Bəyanata salınmışdır. Çünki müzakirə olunan, uzun illər müzakirə olunan sülh planında belə açıq-aydın müddəa yox idi. Yəni nəzərə alınırdı ki, bütün kommunikasiyalar açılacaqdır və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsini birləşdirən dəhliz haqqında söz getmirdi. Hesab olunurdu ki, bu ümumi ifadə bunu ehtiva edir. Burada isə konkret göstərildi ki, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsi arasında dəhliz yaradılır və bu dəhlizin təhlükəsizliyini Ermənistan yox, Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir. Yəni bu dəhliz tam təhlükəsiz olacaq. Eyni



zamanda, ikinci məsələ - tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası - bu məsələni tam və gələcəyə hesablanmış çərçivədə həll etmək üçün əlavə də bənd salındı. Yəni bu nə deməkdir? O deməkdir ki, iki dəhliz olmalıdır. Əgər lazım olsa, iki dəhliz olmalıdır. Bu, bizim tarixi nailiyyətimizdir. Biz Naxçıvanı həm mühasirədən çıxarırıq, eyni zamanda yeni bir nəqliyyat damarını açırıq. Deyə bilərəm ki, bütün ölkələr buradan ancaq faydalanacaq. Azərbaycan öz ayrılmaz hissəsi olan Naxçıvanla birləşir".







### 40 kilometrlik məsafədə bitən problem

2020-ci ildə 44 günlük İkinci Vətən müharibəsində əldə etdiyimiz tarixi Zəfər Naxçıvanın dəmir yolu məsələsini də gündəmə gətirdi. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş naziri və Rusiya Federasiyasının Prezidentinin 2020-ci il 10 noyabr tarixdə imzaladıqları Bəyanata dövlətimizin başçısının təşəbbüsü ilə Azərbaycan respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin bərpası, təhlükəsizliyinə zəmanət məsələsi də salındı.

Ermənistan üzərinə götürdüyü öhdəlikdən qaçsa da, bu nəqliyyat əlaqəsi Naxçıvanla Zəngilan arasındakı cəmi 40 kilometr məsafə olan Zəngəzur dəhlizi ilə mümkün olacaqdı. Çünki dövlət başçısının da dediyi kimi, bu gün Zəngəzur dəhlizi artıq dünyada qəbul edilmiş termindir.

Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan Azərbaycan Respublikasının Prezidentinin və Ermənistan Respublikasının Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində keçirilmiş görüşünə dair Birgə Bəyannaməni imzaladılar. Bəyannamədə Zəngəzur dəhlizinin açılması ilə bağlı müddəalar da yer alır.

Bu Bəyannamə dövlətimizin başçısının son beş ildə Zəngəzur dəhlizinin açılması-Naxçıvanın aid olduğu ölkə ilə quru yolunun bərpa olunması istiqamətində yorulmaz fəaliyyətinin uğurlu nəticəsidir. Baxmayaraq ki, bu yolda da olmazın maneələri ilə qarşılaşdıq.

Prezident İlham Əliyev Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə verdiyi müsahibədə bu barədə ətraflı danışdı: O ki qaldı, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında quru əlaqəsinə, bilirsiniz ki, bu mövzu ətrafında biz son beş ildə nə qədər şayiələr, nə qədər təxribatlar ilə üzləşmişik. Müxtəlif ölkələrin rəhbərləri Azərbaycanın guya ermənilərə hücum etməyi planlaşdırdığı barədə şayiələr yayırdılar, ölkəmizin bu ərazini guya güc yolu ilə ələ keçirməyi planlaşdırdığını deyirdilər. Bunun yalan məlumat olduğu barədə bütün cavablarımız nəticə vermirdi, çünki bu yanlış təsəvvür Vaşinqton da daxil olmaqla, artıq yaranmışdı. Bu azərbaycanofobiyanın hərəkətverici qüvvəsi Bayden administrasiyası idi və biz bunu dəqiq bilirik. Çünki bir çox hallarda avropalı tərəfdaşlarımızla söhbətlərdə onlar bizə bu məlumatın Baydenin komandasından gəldiyini deyirdilər. Onlar Azərbaycanın guya aqressiv niyyətləri barədə qəsdən şayiələr yayırdılar. Hətta Prezident Trampın administrasiyasının ilk aylarında bəzi dövlət qurumlarında köhnə komandanın hələ də çalışan nümayəndələrindən gələn belə yalanlar olub. Onların fəaliyyətinə əsas təsiri Azərbaycana nifrət edən "Human Rights Watch", "Freedom House" kimi QHT-lər və ya USAID, "Azadlıq" radiosu göstərib. Bilirsiniz ki, Prezident Tramp dünyanı USAID adlanan bu fəlakətdən məharətlə xilas etdi. Beləliklə, bu, bizim üçün bu məlumatların yanlış olduğunu izah etmək bir növ çağırış idi. Ona görə də izah etməli idik ki, bizim belə bir niyyətimiz yoxdur.

Bu gün baş verənlərin nəticəsində isə Prezident Trampın şahidliyi ilə Ermənistanın Baş nazirinin şəxsən imzaladığı birgə bəyannamədə Azərbaycanın əsas hissəsindən Naxçıvan Muxtar Respublikasına maneəsiz keçidlə bağlı mövqeyimizi dəqiq əks etdirən müddəa var. Sənəddə bu, Ermənistanın suverenliynə hörmət prinsipi ilə qeyd olunub. Beləliklə, biz istəyirdik ki, Azərbaycanın bir hissəsindən digər hissəsinə maneəsiz giriş əldə edək. Yeri gəlmişkən, bu, həm də Ermənistanın 2020-ci il noyabrın 10-da imza atdığı öhdəlik idi, lakin beş il ərzində heç bir irəliləyiş olmamışdı. Ərazidə heç bir iş aparılmırdı. Bu illər ərzində biz dəmir yolunu az qala Ermənistan sərhədinə çatdırmışıq. Təxminən bir ildən az vaxt lazımdır, sürətlə işləsək, bəlkə də altı aya onu tamamilə Ermənistan sərhədinə çatdırarıq.

### Biz Qafqazda sülhü bərqərar edirik

İkinci Vətən müharibəsindəki tarixi Zəfərə qədərki 30 il və müharibədən sonrakı 5 il ərzində Ermənistanın sülhdən və öhdəliklərindən boyun qaçırması səbəbilə 10 noyabr Bəyannaməsinin də reallaşmaması Azərbaycan və Ermənistan dövlət başçılarının Amerikada görüşməsi ilə uğurla nəticələndi. Amerika dövlət başçısının şahidliyi ilə imzalanan Birgə Bəyannamə Zəngəzur dəhlizinin açılması ilə yanaşı, həm də regionda sülhün bərqərar olmasına təminat verir.

İlham Əliyev: Bu, həqiqətən tarixi gündür - biz Qafqazda sülhü bərqərar edirik və bu fürsət təkcə bizim regionla məhdudlaşmayacaq. Prezident Trampın düzgün qeyd etdiyi kimi, "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" yeni bağlantı əlaqələri yaradacaq, sədləri aradan qaldıracaq və sərmayələr, firavanlıq, sabitlik sayəsində çoxsaylı ölkələr üçün bağlantı imkanları yaradacaq. Azərbaycan və Ermənistan Sovet İttifaqının süqutu nəticəsində eyni vaxtda müstəqillik əldə edib. Ancaq artıq o vaxt biz müharibə şəraitində idik. Biz müharibələrə, işğal dövrünə və qan tökülməsinə uzun illər sərf etdik. Bu gün tarixi gündür, çünki biz sülhü bərqərar edirik. Prezident Tramp Qafqaza sülh gətirir və biz buna görə ona minnətdarıq. Əminəm ki, Ermənistan ilə Azərbaycan sülhün əldə olunması üçün özlərində cəsarət və məsuliyyət tapacaq, xalqlarımız da barışacaqlar. Biz qarşıdurma və qan tökülməsi səhifəsini çevirəcəyik, uşaqlarımız üçün işıqlı və təhlükəsiz gələcək təmin edəcəyik. Mən çox şadam ki, biz bu gün yeni, gözəl tarix yazırıq.

Bütün xalq İkinci Vətən müharibəsində əldə etdiyimiz Zəfərə nə qədər sevinir, nə qədər qürur duyurdusa, Amerikada imzalanan Bəyannaməyə bir o qədər sevinir. Çünki həqiqətən də bununla regiona sülh gəlir. Üstəlik də Zəngəzur dəhlizi açılır. 35 ilə yaxın blokada şəraitində yaşayan Naxçıvan blokadadan çıxır. Bu, böyük qələbədir. Dövlət başçısının illərdən bəri həyata keçirdiyi işlərin uğurlu nəticəsi, Zəfər üstünə bir Zəfərin də gəlməsidir.

***Mətanət Məmmədova***

SON SƏHİFƏ
SƏS
12 avqust
2025-ci il

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Ali məktəblərə ixtisas seçimi başlayıb



***Ali təhsil müəssisələrinə ixtisas seçimi başlanıb. Bu barədə SİA-ya Dövlət İmtahan Mərkəzindən məlumat verilib. Bildirilib ki, ixtisas seçimi bütün ixtisas qrupları üzrə 2025 ci il avqustun 11-dən 19 avqust saat 23:59-dək internet vasitəsilə aparılır.***

İxtisas seçmək hüququ olan abituriyent müsabiqə şərtini ödədiyi ixtisas qrupuna (qruplarına), o cümlədən altqrupuna (altqruplarına) aid olan 15-dək ixtisasın kodunu qeyd edə bilər. İxtisas seçimi mərhələsində abituriyent qəbul olmaq istədiyi ixtisasların kodlarını “Abituriyentin elektron ixtisas sezimi ərizəsi”nə daxil edib təsdiq etməlidir. İmtahan verdiyi ixtisas qrupu (altqrupu) üzrə müsabiqə şərtini ödəyən abituriyent həmin qrup (altqrup) üzrə ixtisas seçmək hüququ əldə edir.

Abituriyent ixtisas seçərkən bu ixtisas üzrə dövlət sifarişi əsasında və ya ödənişli əsaslarla təhsil almaq istədiyini qeyd etməlidir. Hər hansı bir ixtisas üzrə həm dövlət sifarişi, həm də ödənişli əsaslarla olan yerlərin müsabiqəsində iştirak etmək istəyən abituriyent həmin ixtisasın kodunu ərizəyə iki dəfə daxil etməli və birinin qarşısında dövlət sifarişi əsasında, digərinin qarşısında isə ödənişli əsaslarla təhsil almaq istədiyini qeyd etməlidir. İxtisas kodlarını, onların sayını və ardıcıllığını abituriyent özü müəyyənləşdirir. İxtisasların siyahısı “Abituriyent” jurnalının 4 saylı buraxılışında verilib.

Dövlət hesabına ali təhsil almış abituriyentlər dövlət sifarişi üzrə ayrılmış yerləri seçə bilməzlər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, qüvvədə olan qanunvericilikdə və dövlətlərarası razılaşmalarda digər hallar nəzərdə tutulmayıbsa, dövlət sifarişi üzrə ayrılmış yerləri seçə bilməzlər. Müsabiqə şərtləri barədə ixtisas sezimi haqq nda elandan ətraflı məlumat ala bilərsiniz.

# Qusarda arvadını və qayınını baltalayan şəxs yaxalanıb



***Qusar rayonunda arvadı və qayınını baltalayan şəxsə xüsusi amansızlıqla adam öldürmə maddəsi ilə cinayət işi açılıb. Baş Prokurorluqdan SİA-ya verilən məlumata görə, Vəkil Əlibəyovun rayonun Yuxarı Tahircal kəndində yerləşən fərdi yaşayış evində balta ilə çoxsaylı xəsarətlər yetirərək Şirin Ömərovu xüsusi amansızlıqla qəsdən öldürməsinə, Şəlalə Ömərovaya isə xəsarət yetirməsinə əsaslı şübhələr müəyyən edilib.***

Faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.4-cü (xüsusi amansızlıqla adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. Vəkil Əlibəyov rayon prokurorluğu tərəfindən şübhəli şəxs qismində tutulub. Hazırda iş üzrə ibtidai istintaq davam etdirilir.

# “Qalatasaray” məşhur hücumçusu ilə vidalaşıb



***Türkiyənin "Qalatasaray" klubu futbolçusu Alvaro Morato ilə yollarını ayırıb. SİA xəbər verir ki, bu barədə İstanbul təmsilçisi məlumat yayıb. 32 yaşlı hücumçunun icarə müqaviləsinə qarşılıqlı razılıq razılıq əsasında xitam verilib. Forvardın məxsus olduğu İtaliyanın "Milan" klubu "sarı-qırmızılar"a 5 milyon avro ödəyəcək. Bundan əlavə, oyunçu alacağı 651 min 562 avrodan da imtina edib.***

Qeyd edək ki, Alvaro Morata bu ilin fevralında ”Qalatasaray”a keçib. O, 2024-cü ildə İspaniya millisi ilə Avropa çempionatının qalibi olub.

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 3000